AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpnews.az
www.olimpiyadunyası.az

Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti

№ 30 (1375), 17 - 23 iyul 2018-ci il

Qəzet 2001-ci ildən çıxır.

### *Fransa Respublikasının Prezidenti Zati-aliləri cənab Emmanuel Makrona*

Hörmətli cənab Prezident,

XXI dünya çempionatında Fransa futbolçularının möhtəşəm qələbəsi və dünya çempionu adını qazanması münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Dünya birinciliyinin gərgin mübarizəsindən qalib çıxaraq öz tarixində ikinci dəfə bu yüksək titulu qazanmış və azarkeşlərinə hədsiz sevinc bəxş etmiş Fransa yığmasının bütün üzvlərinə təbriklərimi yetirir, onlara yeni-yeni uğurlar diləyirəm.

Hörmətlə,

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 16 iyul 2018-ci il.

### *Xorvatiya Respublikasının Prezidenti Zati-aliləri xanım Kolinda Qrabar-Kitaroviçə*

Hörmətli xanım Prezident,

Futbol üzrə XXI dünya çempionatında Xorvatiya yığma komandasının uğurlu çıxış edərək bu mötəbər turnirin gümüş medalını qazanması münasibətilə Sizə və dost Xorvatiya xalqına təbriklərimi yetirirəm.

Dünya birinciliyinin bütün oyunlarında yüksək ustalıq, əzmkarlıq və iradə nümayiş etdirərək tarixində ən böyük müvəffəqiyyətə nail olmuş Xorvatiya futbolçularını ürəkdən təbrik edir, onlara yeni-yeni uğurlar arzulayıram.

Hörmətlə,

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 16 iyul 2018-ci il.

### *Rusiya Federasiyasının Prezidenti Zati-aliləri cənab Vladimir Putinə*

Hörmətli Vladimir Vladimiroviç.

Sizi və bütün Rusiya xalqını futbol üzrə XXI Dünya Çempionatının uğurla keçirilməsi münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Dünya çempionatı idmanın bu ən populyar növünün bütün pərəstişkarları, milyonlarla azarkeş üçün həqiqətən unudulmaz idman bayramı oldu.

Rusiyada başa çatmış dünya birinciliyi idmanın xalqları yaxınlaşdıran, dostluğu və əməkdaşlığı möhkəmləndirən böyük qüvvə olmasını parlaq şəkildə nümayiş etdirməklə, haqlı olaraq çempionatlar tarixinə bu cür turnirlərin ideal təşkili, keçirilməsi və hazırlanması nümunəsi kimi daxil olacaq.

Hörmətli Vladimir Vladimiroviç, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, yeni uğurlar, bütün rusiyalılara isə sülh və firavanlıq arzu edirəm.

Hörmətlə,

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı, 16 iyul, 2018-ci il

## "Bakı-2019" Avropa Gənclər Yay Olimpiya Festivalına hazırlıq işləri müzakirə edilib



İyulun 10-da Gənclər və İdman Nazirliyində gələn il Bakıda keçiriləcək XV Avropa Gənclər Yay Olimpiya Festivalına hazırlıq işləri ilə bağlı Əlaqələndirmə Komissiyasının toplantısı keçirilib.

Toplantıda Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, təşkilat komitəsinin üzvləri, eyni zamanda, yarışa hazırlıq işləri ilə daha yaxından tanış olmaq üçün Bakıda səfərdə olan Avropa Olimpiya Komitəsi Əlaqələndirmə Komissiyasının rəhbəri, Serbiya Milli Olimpiya Komitəsinin baş katibi Corce Visaçki, Əlaqələndirmə Komissiyasının üzvü, İslandiya Milli Olimpiya Komitəsinin baş katibi xanım Liney Rut Xalldorsdottir və Əlaqələndirmə Komissiyasının üzvü, Bosniya və Herseqovina Milli Olimpiya Komitəsinin baş katibi Said Fazlaqiç iştirak ediblər.

(ardı 2-ci səhifədə)

## Minskdə II Avropa Oyunlarının iclası keçirilib

İyulun 10-12-də II Avropa Oyunları Minsk-2019-un nümayəndə heyəti Rəhbərlərinin iclası keçirilib. Tədbirdə Azərbaycan nümayəndə heyətini Milli Olimpiya Komitəsinin idman şöbəsinin rəisi Həsənağa Rzayev təmsil edib.

İclasda iştirakçı ölkələrin nümayəndə heyətlərinin rəhbərləri, rəsmilər, II Avropa Oyunlarının və Avropa Olimpiya Komitəsinin rəhbərliyi iştirak edib.

Tədbir çərçivəsində iştirakçı ölkələr və təşkilatçılar tərəfindən təqdimatlar keçirilib. Tədbir iştirakçıları həmçinin, Atletlər Kəndi və müxtəlif yarış obyetləri ilə tanış olublar.

Tədbir iyulun 12-də mətbuat konfransı ilə başa çatıb.

Xatırladaq ki, II Avropa Oyunları gələn il iyunun 21-30-da Belarus paytaxtı Minskdə keçiriləcək.

## Paytaxtımız daha bir beynəlxalq idman tədbirinə hazırlaşır

2018
2-ci BEYNƏLXALQ HƏMRƏYLİK TENNİS ÇEMPİONATI
BAKI 2018
23-27 İYUL

İyulun 23-27-də Bakıda ikinci beynəlxalq həmrəylik tennis çempionatı keçiriləcək. Çempionat Azərbaycan Milli Olimpiya Komitəsi (MOK) və İslam Həmrəyliyi İdman Federasiyasının (İHİF) imzaladığı memorandum əsasında təşkil olunacaq.

Bakı Tennis Akademiyasında təşkil olunacaq çempionatda 14 və daha yuxarı yaş kateqoriyasına aid idmançılar iştirak edəcəklər. Tennisçilər 4 qrup üzrə yarışacaqlar.

Bakı-2018-də 18 ölkədən 50-dək tennisçinin iştirakı gözlənilir. Azərbaycanla yanaşı, Albaniya, İraq, Qırğızıstan, Maldiv adaları, Mozambik, Səudiyyə Ərəbistanı, Seneqal, Uqanda, Özbəkistan, Belarus, Rusiya, Tacikistan, Liviya, Türkiyə, İran, Küveyt və Qətər çempionatda iştirakını təsdiqləyib.

Xatırladaq ki, çempionatın loqosu ötən ay ictimaiyyətə təqdim olunub. Birinci beynəlxalq həmrəylik tennis çempionatı 2015-ci ildə İndoneziyanın Palembanq şəhərində III İslam Həmrəyliyi Oyunlarının bir irsi kimi keçirilib.



## Yeniyetmələrin III Yay Olimpiya Oyunlarına 73 gün qalır

## Atletimiz Buenos-Ayres-2018-ə lisenziya əldə etdi



Macarıstanın Györ şəhərində yeniyetmələr arasında atletika üzrə Avropa çempionatı keçirilib. Yarışda ölkəmizi təmsil edən Rüstəm Məmmədov üç təkanla tullanma növündə 15,16 m nəticə göstərərək bürünc medala layiq görülüb. Təmsilçimiz bu nəticə ilə Buenos-Ayresdə təşkil olunacaq Yeniyetmələrin Olimpiya Oyunlarına da vəsiqə qazanıb.

## DÇ-2018: Fransa millisi 20 ildən sonra yenidən dünya çempionu adını qazanıb

### *Xorvatiya yalnız finalda uduzaraq, milyonları məyus etdi*




Səh. 3-4

## *Batutçular Dünya kubokunun qızıl medalını yiyələniblər*

İsveçrənin Arosa şəhərində keçirilən batut gimnastikası üzrə Dünya kuboku yarışlarına yekun vurulub. 18 ölkə arasında Azərbaycanın də yer aldığı turnir milli komandamız üçün uğurla başa çatıb.

Azərbaycanın batut gimnastikası tarixində ilk dəfə kişilərdən ibarət təmsilçilərimiz sinxron proqramda qızıl medala sahib olublar. Cütlüyümüz Ruslan Ağamirov və İlya Qrişuninin final mərhələsindəki dəqiq çıxışları onlara 50.050 xal qazandırıb. Beləliklə, gimnastlarımız Dünya kubokunun qalibi olublar.

Arosa şəhərində Dünya kuboku yarışları ilə paralel keçirilən "Nissen Cup" adlı beynəlxalq turnirdə isə gənc gimnastımız Selcan Mahsudova ölkəmizi təmsil edib. Batutçumuz final mərhələsinə 1-ci yerdən adlasa da, həlledici çıxışında səhvə yol verərək, 7-ci olub.

Batutçularımızla yanaşı, idman gimnastlarımız da iştirak etdikləri turnirdən əliboş qayıtmayıblar. İyulun 6-8-də Türkiyənin Mersin şəhərində keçirilən "Challenge" seriyasından Dünya kuboku yarışlarında qadın idman gimnastımız Yulia İnşınan turniklə hərəkətlərdə bürünc medalı qazanıb. Gimnastımız dayaqla tullanma və sərbəst hərəkətlərdə isə 4-cü yeri tutub. Müxtəlif hündürlüklü qollarda isə təmsilçilərimiz Mariya Smirnova və Marina Nekrasova müvafiq olaraq 4-cü və 5-ci pillədə qərar tutublar.

Kişi idman gimnastlarımızdan isə ən yaxşı nəticə Dariy Morozova aid olub. Təmsilçimiz sərbəst hərəkətlər və dəstəli at üzərində çıxışı ilə yarışları 4-cü yerdə başa vurub.

# “Bakı-2019” Avropa Gənclər Yay Olimpiya Festivalına hazırlıq işləri müzakirə edilib

*(əvvəli 1-ci səhifədə)*

Toplantı zamanı “Bakı-2019”a hazırlıqla bağlı Təşkilat Komitəsinin gördüyü işlər, idman yarışlarının cədvəli, Atletlər kəndindəki vəziyyət, Milli Olimpiya komitələri arasında əlaqələrin qurulması, könüllülərin yarış proqramı və digər mühüm əhəmiyyət kəsb edən məsələlər müzakirə edilib.

Məlumat üçün bildirək ki, Bakıda olduqları müddətdə Avropa Olimpiya Komitəsinin rəsmiləri Milli Gimnastika Arenası, Bakı Su İdmanı Sarayı, Bakı İdman Sarayı, Atletlər kəndi və bir sıra idman qurğularında da olacaqlar.

Avropa Gənclər Yay Olimpiya Festivalı gələn il iyulun 20-28-də Bakıda keçiriləcək. Yarışın açılış mərasimi iyulun 21-də təşkil olunacaq. Ümumilikdə, 50 Avropa ölkəsindən 3 min 600-dən çox idmançı və texniki nümayəndə heyəti yarışda iştirak etmək üçün ölkəmizə təşrif buyuracaq. On idman növü üzrə (bədii gimnastika, atletika, basketbol, velosiped, həndbol, cüdo, üzgüçülük, tennis, voleybol, güləş) keçiriləcək yarışlara ümumilikdə 2500-dən çox könüllü cəlb olunacaq.

Qeyd edək ki, Avropa Gənclər Festivalının ideyası gənclərə Olimpiya hərəkatını tanıtmaq, Olimpiya dəyərləri və ideallarını öyrətmək məqsədilə Avropa Olimpiya Komitəsinin sabiq prezidenti Jak Roqq tərəfindən 1990-cı ildə irəli sürülüb. Festival 14-18 yaş arasında gənc Avropa atletləri üçün yüksək səviyyəli çox idman növlü tədbirdir. Birinci festival 1991-ci ildə Belçikanın paytaxtı Brüsseldə keçirilib. Bu tədbir iki ildə bir dəfə, cüt deyil, tək illərdə qışda və yayda keçirilir. Avropa Gənclər Olimpiya Festivalı Avropa Olimpiya Komitəsinə aiddir və Beynəlxalq Olimpiya Komitəsinin himayəsi ilə Avropa Olimpiya Komitəsi adından təşkil olunur.

Xatırladaq ki, festivala ev sahibliyi edən ölkə bütün yarışlarda əvvəlcədən kvalifikasiya raundu olmadan iştirak etmək hüququnu qazanır.

# Gimnastika üzrə qrup komandamız qızıl medala layiq görülüb

Belçikanın Lyej şəhərində Avropa Gimnastika İttifaqının (UEG) təşkilatçılığı ilə 1-ci “European Gym for Life Challenge” yarışı keçirilib. İlk dəfə keçirilən yarışda həmyerlimiz, UEG-in prezidenti Fərid Qayıbov beynəlxalq turniri açıq elan edərək, bütün iştirakçılara uğurlar arzulayıb.



12 ölkədən 800 gimnastın iştirak etdiyi yarışda Azərbaycan yığması da təmsil olunub. Qrup çıxışlarını daha da mükəmməlləşdirmək məqsədilə təşkil olunan bu festivalda 2006-cı il təvəllüdlü və daha böyük gimnastlardan ibarət komandalar çıxış edib. Bir-birindən maraqlı və rəngarəng kompozisiyalar əsasən müxtəliflik, texnika, təhlükəsizlik, orijinallıq, ümumi təəssürat və əyləncə meyarlarına görə dəyərləndirilib.

Ölkəmizi təmsil edən Ruslan Eyvazov, Akif Kərimli, Nərminə Hüseynova, Elçin Məmmədov, Fərid Mustafayev, Murad Əkpərov, Narın Qurbanova, Güllü Ağalarzadə, Nərmin Cahangirova və Seymur Cəfərovdan ibarət qrupumuz 37 komanda arasında fərqlənərək qızıl medala layiq görülüb. Gimnastlarımız gözəl və cəlbedici geyimlərinə görə isə “Best Costume” nominasiyasında diplomla mükafatlandırılıblar. “Wow Performance” nominasiyasında isə Portuqaliya komandası fərqlənib.

Xatırladaq ki, ötən il Norveçin paytaxtı Osloda Beynəlxalq Gimnastika Federasiyasının təşkil etdiyi “World Gym for Life Challenge” festivalında da Azərbaycan təmsilçiləri qızıl medal qazanmışdılar.

## *Azərbaycanlı hakimlər Buenos-Ayresdə ədaləti qoruyacaqlar*

Bu il oktyabrın 6-18-dək Argentinanın paytaxtı Buenos-Ayresdə Yeniyetmələrin III Yay Olimpiya Oyunları keçiriləcək. Yarışda gimnastların çıxışlarının dəyərləndirmək üçün Azərbaycandan gimnastika üzrə hakimlər dəvət olunublar.

Gimnastika üzrə yığma komandalarımızın hakimləri - Nigar Abdusəlimova (bədii gimnastika), Rza Əliyev (idman gimnastikası) və Kamil Quliyev (batut) Buenos-Ayres-2018 Olimpiadasında yarışları idarə edəcəklər.

Xatırladaq ki, Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında həm bədii gimnastika, həm də kişi idman gimnastikası üzrə yığma komandalarımız hərəsi bir idmançı ilə təmsil olunacaq.



# Cüdoçularımızın Almaniya sınağı uğurla başa çatdı

Almaniyanın Saarbrüker şəhərində cüdo üzrə Avropa kuboku yarışına yekun vurulub. 26 ölkədən 387 (269 kişi, 118 qadın) cüdoçunun qüvvəsini sınadığı qitə turnirdə Azərbaycan millisi 10 cüdoçu ilə təmsil olunub. Mötəbər turnirin ikinci günü millimiz üçün daha uğurlu olub. Belə ki, təmsilçilərimiz 2 qızıl, 1 gümüş medal qazanıb.

90 kq çəki dərəcəsində ölkəmizi təmsil edən Məmmədəli Mehdiyev bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. +100 kq çəki dərəcəsində isə Azərbaycan finalı yaşanıb. Belə ki, həlledici görüşdə Uşanqi Kokauri və Şahin Qəhrəmanov üz-üzə gəlib. Uşanqi Kokauri qızıl, Şahin Qəhrəmanov isə gümüş medal əldə edib.

Bununla da, millimiz Avropa Kuboku yarışını 2 qızıl, 1 gümüş və 3 bürünc medalla başa vurub.

## Gənc velosipedçilərimiz Türkiyədə uğurla çıxış ediblər

Türkiyənin Kastamonu şəhərində 15 iyul - Demokratiya və Milli Birlik Günü münasibətilə beynəlxalq turnir təşkil edilib. Ölkəmizi bu yarışda təmsil edən gənc velosipedçilərimiz uğurlu çıxış nümayiş etdiriblər. Türkiyə Velosiped Federasiyası və Kastamonu Gənclər və İdman İdarəsi tərəfindən təşkil edilən yarışın gənclər kateqoriyasında fəxri kürsünün ilk 3 pilləsində Azərbaycan velosipedçiləri qərarlaşıblar.

Məşqçi Asif Həsənovun rəhbərliyi altında Türkiyədə 4 gənc velosipedçimiz - Xankişi İsgəndərov, Mahmud Məmmədov, İvan Orlov və Əli Qurbanov çıxış edib. 100 km-lik marşrutu hamıdan tez Mahmud Məmmədov qət edib. Yığmamızın digər üzvləri İvan Orlov və Xankişi İsgəndərov isə müvafiq olaraq II və III yerləri tutublar. Əli Qurbanov 5-ci nəticə göstərib. Yığmamız komanda hesabında da 1-ci olub.

# Komandamız Kutaisidə ikinci yeri tutdu



Kutaisidə 3x3 basketbol idman növü üzrə “3x3GeoTour2018” Gürcüstan turunun ikinci turniri keçirilib.

Turnirdə ölkəmizi “3x3 Azərbaycan” (Nicat Mirzəyev, Teymur Quliyev, Ramil Əyyubov) və “Phoenix Baku” (Rəhman Teymurbəyov, Elmar Mir-Bağırov, Andrey Kondratyev, Fariz Qənbərov) komandaları təmsil edib.

A qrupunda çıxış edən “Phoenix Baku” komandası “Young boys” 17:14, “Alik&Company” isə 17:13 hesabı ilə qalib gələrək yarımfinala yüksəlib. Eyni zamanda B qrupunda yer alan “3x3 Azerbaijan” komandası “Bad Boys”a 14:16 və “Whats Up”a 16:17 hesabı ilə məğlub olaraq mərhələ adlaya bilməyib və turnirdə beşinci yerə sahib olub.

“Phoenix Baku” yarımfinalda “Whats Up”a 21:17 hesabı ilə qalib gələrək həlledici mərhələyə vəsiqə qazanıb. Finalda “Bad Boys” komandasına 19:21 hesabı ilə məğlub olan təmsilçimiz “3x3 GeoTour 2018” adlı Gürcüstan turunun Kutaisi mərhələsində ikinci yerə çıxıb.

Qeyd edək ki, “3x3 GeoTour 2018” turunun növbəti turniri Rustavidə keçiriləcək.

# Media nümayəndələri stolüstü tennis yarışında

***İyulun 14-də mətbuat nümayəndələri arasında stolüstü tennis turniri keçirilib. “Şüa” idman-Sağlamlıq Kompleksində keçirilən turnir 22 iyul - Milli Mətbuat Gününə həsr olunub.***

Turnirin açılış mərasimində çıxış edən Azərbaycan Stolüstü Tennis Federasiyasının vitse-prezidenti Fazil Məmmədov və Azərbaycan Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov qarşıdan gələn Milli Mətbuat Günü münasibətilə media nümayəndələrinə təbriklərini çatdırıb, onlara yarışda uğurlar arzulayıblar. Bildirilib ki, yarış Azərbaycan Stolüstü Tennis Federasiyasının təqvim planına müvafiq olaraq təşkil edilib. Turnirin keçirilməsində məqsəd milli mətbuatın yaradılmasının 143-cü ildönümünün qeyd edilməsi, iştirakçıların sağlamlığının möhkəmləndirilməsi və asudə vaxtlarının səmərəli təşkili, mətbuat işçiləri arasında stolüstü tennisin təbliğ olunmasıdır.

Xüsusi vurğulanıb ki, Azərbaycanda idmana xüsusi diqqət və qayğı göstərilir. Ölkəmizdə idmanın digər növləri kimi, stolüstü tennis də inkişaf edir. Azərbaycan Stolüstü Tennis Federasiyası bu idman növünün populyarlaşması, kütləviləşməsi və inkişafı, gənc idmançıların hazırlanması istiqamətində məqsədyönlü fəaliyyət həyata keçirir.

Fərdi xarakter daşıyan yarış Beynəlxalq Stolüstü Tennis Federasiyasının qaydalarına əsasən təşkil edilib.

Sonda həm kişilərin, həm də qadınların yarışında qalib gələnlər federasiyanın diplom və mükafatları ilə təltif olunublar.



## Vinq Çun Döyüş Sənəti Federasiyası fəaliyyətə başlayıb

***İyulun 13-də Bakı Biznes Universitetinin konfrans zalında Vinq Çun Döyüş Sənəti Federasiyasının fəaliyyətə başlaması ilə əlaqdar mətbuat konfransı keçirildi.***

Konfransda idman ictimaiyyətinin nümayəndələri, Olimpiya, dünya və Avropa çempionları, KİV təmsilçiləri iştirak edirdilər.

Ölkədə yeni federasiyanın fəaliyyətə başlaması münasibətilə idman ictimaiyyətini və federasiya nümayəndələrini təbrik edən Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin (BŞGİBİ) rəisi Raqif Abbasov dedi: “Azərbaycanda idmanın təbliği insanların sağlam həyat tərzinə xidmət edir. Respublikamız dünyada idman ölkəsi kimi tanınır. İdmanda əldə olunan uğurlar hər birimizi sevindirir. Artıq ölkəmizdə Azərbaycan Vinq Çun Döyüş Sənəti Federasiyası fəaliyyətə başlayıb. Ümid edirəm ki, federasiyanın təşkilatçılığı ilə mütəmadi olaraq paytaxt və ölkə çempionatları təşkil olunacaq, idmanın bu növü respublikanın bütün bölgələrini əhatə edəcək, regionlarda nümayəndəliklər yaradılacaq. Bu sahədə əsas amillərdən biri də yüksək kateqoriyalı hakimlərin hazırlanmasıdır. Ölkəmiz yüksək səviyyəli idman yarışlarının təşkilində böyük təcrübəyə malikdir. Vinq Çun idman növü üzrə respublikamızda irimiqyaslı yarışların keçirilməsi yaxşı olardı”.

Vinq Çun döyüş sənətinin orta və ali təhsil müəssisələrində təbliğinin vacibliyini də diqqətə çatdıran Raqif Abbasov federasiyaya gələcək fəlaiyyətində uğurlar arzuladı.

Sonra federasiyanın idarə heyətinin üzvlərinə vəsiqələr təqdim olundu. İlk vəsiqəni federasiyanın prezidenti Asif Sayadov aldı.

Vinq Çun Döyüş Sənəti Federasiyasının pezidenti Asif Sayadov döyüş sənətinin ölkəmizdə inkişafı haqqında məlumat verərək, qarşıya qoyulan məqsəd və vəzifələrdən danışdı. İdmanın bu növünün ölkəmizdə on il əvvəl tədrisinə başlandığını vurğulayan Asif Sayadov vətənə layiqli idmançılar yetişdirəcəklərinə söz verdi: “Federasiyanın məqsədi idmanın bu növünü ölkəmizdə inkişaf etdirmək, gənc nəslin sağlam ruhda böyüməsinə nail olmaqdır. Eləcə də, gənclərə vətənpərvərlik hisslərini aşılamaq və ölkəmizin idman şərəfini layiqincə qorumaq üçün əlverişli şərait yaratmaq prioritet istiqamətlərimizdəndir”.

Tədbirdə çıxış edən Olimpiya çempionları Namiq Abdullayev, Elnur Məmmədli, Zemfira Meftaxetdinova, Lyudmila Şubina, dəfələrlə dünya və Avropa çempionları Rəfael Ağayev, Eduard Məmmədov və digərləri yeni yaradılan federasiyaya işlərində uğurlar arzuladılar.

Jalə Əhmədova Vinq Çun Döyüş Sənəti Federasiyasının birinci vitse-prezidenti, Fərid Mayılov və İlqar Mustafayev isə vitse-prezident seçildilər.

Sonda jurnalistlərin sualları cavablandırılıb.

Qeyd edək ki, vinq çun böyük fəlsəfəsi olan qədim Çin döyüş sənətidir və 1700-1820-ci illərdə bu ölkədə yaradılıb. Bu döyüş sənəti ölkəmizə ilk dəfə 2008-ci ildə Şərq döyüş növləri üzrə Əməkdar Məşqçi, beynəlxalq dərəcəli usta Asif Sayadov tərəfindən gətirilib. Ötən on il ərzində bir sıra yerli və xarici federasiyalarla sıx əlaqələr yaradılıb, müxtəlif Avropa və dünya çempionatlarında idmançılarımızın iştirakı təmin olunub.

***Səadət Hakıyeva***

# Formula-1 mövsümünün 8 mərhələsinin tarixləri məlum olub

2019-cu il Formula-1 mövsümünün 8 mərhələsinin tarixləri məlum olub. Mövsümün ilk yeddi yürüşünün və çempionatın sonuncu mərhələsinin tarixləri açıqlanıb.

Təqvimin qalan hissəsi Mayami Qran-Prisinin baş tutub-tutmayacağından asılı olacaq. Çünki Mayami ilə “Liberty Media” şirkəti arasında müqavilə bağlanması məsələsində bəzi çətinliklər yaranıb.

Çempionatın startı martın 17-nə təyin edilib, sonuncu mərhələ isə dekabrın 1-də Əbu-Dabidə keçiriləcək.

2019-cu il mövsümü üçün Formula1 mərhələlərinin təqvimi:

17 mart - Avstraliya Qran-Prisi
31 mart - Bəhreyn Qran-Prisi
14 aprel - Çin Qran-Prisi
28 aprel - Azərbaycan Qran-Prisi
12 may - İspaniya Qran-Prisi
26 may - Monako Qran-Prisi
9 iyun - Kanada Qran-Prisi
1 dekabr - Əbu-Dabi Qran-Prisi










XÜSUSİ BURAXILIŞ - 7

# DÇ-2018: Fransa millisi 20 ildən sonra yenidən dünya çempionu adını qazanıb

## *Xorvatiya yalnız finalda uduzaraq, milyonları məyus etdi*

## "Qırmızı şeytanlar" göründüyü kimi deyilmiş

**Yarımfinal**

**Fransa - Belçika - 1:0 (0:0)**
**Qol:** Samuel Umtiti, 51
**Sarı vərəqələr:** Eden Hazar, 63, Tobi Alderveyreld, 71, Nqolo Kante, 86, Kilian Mbappe, 90+2, Yan Vertongen, 90+5
**Hakimlər:** Andres Kunya, Nikolas Taran, Maurisio Espinoza (hamısı Uruqvay) Sezar Ramos (Meksika)
***10 iyul. Sankt Peterburq. "Zenit Arena", 64286 tamaşaçı***



İyulun 10-da futbol üzrə dünya çempionatında yarımfinal mərhələsinə start verilib. Surpirizlərlə yadda qalan mundialın ilk finalçısının adına Fransa və Belçika yığmaları arasında keçirilən oyundan sonra aydınlıq gəlib.

Fransa dörddəbir finalda Uruqvayı 2:0 hesabı ilə məğlub edib. Belçika isə beşqat dünya çempionu Braziliya millisini 2:1 hesabı ilə üstələyərək mübarizədən kənarlaşdırıb.

Komandalar bu vaxtadək dünya çempionatlarında iki dəfə qarşılaşıblar. Hər iki görüş fransızların qələbəsi ilə yekunlaşıb. Fransa 1938-ci il dünya çempionatının səkkizdəbir final mərhələsində Belçikanı 3:1 hesabı ilə məğlub edib. Belçika və Fransa yığmaları 1986-cı il mundialında 3-cü yer uğrunda görüşdə münasibətlərinə aydınlıq gətiriblər. Bu qarşılaşmada fransızlar rəqibini 4:2 hesabı ilə məğlub etməyi bacarıblar.

Belçika tarixi ərzində ikinci dəfə yarımfinal oyununa çıxıb. Komanda ilk dəfə 1958-ci və 1986-cı illərdə bu mərhələdə iştirak edib.

1958-ci ildə Fransa millisinin hücumçusu Jüst Fonten 13 qolla çempionatının bombardiri olub. O, bir çempionatda ən çox qol vuran futbolçu rekordunu bu günədək özündə saxlayır.

1998-ci il dünya çempionatının qalibi olan Fransa isə 6-cı dəfə yarımfinal matçına çıxıb. 1958-ci, 1982-ci və 1986-cı il mundiallarında məğlub olan komanda 1998-ci və 2006-cı illərdə finala vəsiqə qazana bilib.

1930-cu ildə ilk dünya çempionatında iştirak edən dörd Avropa təmsilçisindən biri olan Fransa yığması indiyədək 14 dəfə mundiallarda yer alıb.

Heyətindəki futbolçuların qiymətinə görə çempionatın ən bahalı komandalarından olan Belçika yığması doqquz dəfə mundialda iştirak hüququ qazanıb. Belçikalıların dünya çempionatlarında ən yaxşı göstəricisi 1986-cı ildə bürünc mükafat qazanması olub.

Qarşılaşmaya gəlincə, Sankt-Peterburqdakı "Zenit Arena"da keçirilən oyunda Fransa millisi Belçika yığmasını minimal hesabla məğlub edib (1:0). Mundialın favoritlərindən sayılan bu millilərin qarşılaşmasında ilk dəqiqələrdən hər iki komanda bir neçə təhlükəli hücumlar yaradıb. Buna baxmayaraq, ilk hissədə hesab açılmayıb.

Qarşılıqlı hücumlar şəraitində keçən ikinci hissədə hesabı fransızlar açıblar. Antuan Qrizmanın künc ötürməsini Samuel Umtiti dəqiq baş zərbəsi ilə tamamlayıb - 1:0.

Beləliklə, Fransa millisi dünya çempionatının final mərhələsinə vəsiqə qazanıb. "Üçrənglilər" tarixində son 20 il ərzində üçüncü dəfə dünya çempionatının final mərhələsində oynamaq hüququ qazanıb.

Oyundan sonra DÇ-2018-in yarımfinal mərhələsinin Fransa - Belçika oyununun ən yaxşısı müəyyənləşib. FİFA bu dəfə də qol müəllifini fərqləndirib. Qurum oyunun ən yaxşısı adına fransızlara qələbə qazandıran yeganə qolun müəllifi Samuel Umtitini layiq bilib.

## "Dumanlı Albionlular" arxayınlığın qurbanı oldular

**Xorvatiya - İngiltərə - 2:1 (0:1)**
**Qollar:** İvan Perişiç, 68; Mario Mandzukiç, 109 - Kiran Trippier, 5
**Sarı vərəqələr:** Mario Mandzukiç, 48; Ante Rebiç, 96 - Kayl Uolker, 54
**Hakimlər:** Cüneyt Çakır, Bahettin Duran, Tarik Ongun (hamısı Türkiyə), Byörn Kuypers (Hollandiya)
***11 iyul. Moskva. "Lujniki" stadionu, 78011 tamaşaçı***



İyulun 11-də dünya çempionatında ikinci yarımfinal oyunu keçirilib. İkinci finalçının adına aydınlıq gələcək oyunda Xorvatiya və İngiltərə millilәri qarşılaşıb. Moskvadakı "Lujniki" stadionunda keçirilən matçı türkiyəli referi Cüneyt Çakır idarə edib. Matçın 5-ci dəqiqəsində Kieran Tripperin cərimə zərbəsindən birbaşa "doqquzluğa" göndərdiyi top ada təmsilçisini hesabda irəli çıxarıb - 1:0. Qarşılıqlı hücumlara baxmayaraq, birinci hissədə əlavə qol olmayıb və komandalar fasiləyə bu hesabla yollanıblar.

Matçın ikinci hissəsinin ortalarından etibarən hesabı bərabərləşdirmək üçün təzyiqləri artıran Balkan təmsilçilərinin ardıcıl təhlükəli hücumları 68-ci dəqiqədə bəhrəsini verib. Şime Vrsalkonun sağ cinahdan ötürməsindən sonra rəqibin cərimə meydançasında müdafiəçilərdən əvvəl özünü topa yetirən İvan Perişiçin zərbəsi qapıçı üçün əlçatmaz olub - 1:1.

Qoldan ruhlanan "damalılar" ingilislərin qapısı qarşısında bir neçə təhlükəli vəziyyət yaradıb. Matçın 72-ci dəqiqəsində Perişiçin dubl etməsi üçün əlverişli imkan yaransa da, onun zərbəsindən sonra top qapı dirəyinə dəyib.

Qarşılaşmanın əsas vaxtı 1:1 hesablı heçə ilə başa çatdığından qalibi müəyyənləşdirmək üçün hər biri 15 dəqiqəlik iki hissə oynanılıb.

Artırılan ikinci hissənin 4-cü (109-cu) dəqiqəsində Xorvatiya yığması hesabda irəli çıxıb. Mario Mandzukiç komandasına finala vəsiqə qazandıran həlledici topu britaniyalıların qapısından keçirib - 2:1. Bu, oyunda sonuncu qol olub. Beləliklə, 1966-cı ildən sonra 52 ildi çempionluğa həsrət qalan İngiltərə millisi yenə də kuboka yaxınlaşa bilməyib. Beləliklə, XXI dünya çempionatının yarımfinal mərhələsinin ikinci oyununda İngiltərə yığmasını 2:1 hesabı ilə məğlub edən Xorvatiya millisi tarixində ilk dəfə mundialın finalına yüksəlib. Beləliklə, Rusiyadakı mundialın final matçında Fransa və Xorvatiya millilәri üz-üzə gələcəklər.

Xorvatiya - İngiltərə oyunundan sonra matçın ən yaxşı futbolçusunun adına da aydınlıq gəlib. FİFA xorvatiyalıların yarımmüdafiəçisi İvan Perişiçi fəqləndirib.

Oyunu yüksək səviyyədə keçirən ulduz futbolçu 68-ci dəqiqədə komandasının bərabərlik qoluna imza atıb.

Xatırladaq ki, "Dumanlı Albion" təmsilçisi mundialda Belçika, Tunis və Panama komandaları ilə eyni qrupda mübarizə aparıb. İngilislər qrupda üç oyunun ikisində qələbə qazanıb və bir qarşılaşmada uduzublar. Komanda ilk turda Tunisi 2:1, ikinci turda isə Panamanı 6:1 hesabı ilə məğlub edib. 1966-cı ildəki dünya çempionatının qalibləri sonuncu turda Belçikaya 0:1 hesabı ilə məğlub olublar. İngiltərə millisi səkkizdəbir finalda Kolumbiyanı 11 metrlik cərimə zərbələri seriyasında, İsveçi 2:0 hesabı ilə məğlubiyyətə uğradaraq yarımfinala yüksəlib. Aktivində 6 qol olan İngiltərə millisinin hücumçusu Harri Keyn çempionatın ən məhsuldar futbolçusudur.





D qrupunda Nigeriya (2:0), Argentina (3:0) və İslandiyaya (2:1) qalib gələn xorvatiyalılar 9 xalla qrupu ilk sırada başa vurublar. Xorvatiya yığması səkkizdəbir finalda Danimarkanı, dörddəbir finalda isə Rusiya yığmasını 11 metrlik cərimə zərbələri seriyasında məğlub edərək mübarizədən kənarlaşdırıb.

İngiltərə və Xorvatiya komandaları indiyədək 7 dəfə qarşılaşıb. Bu oyunlarda britaniyalılar üstünlüyə malikdir. Futbolun yaradıcıları bu oyunadək xorvatiyalılar üzərində 4 dəfə qələbə qazanıblar. Balkanlıların isə britaniyalılarla matçlarda 2 qələbəsi var. Yalnız bir matç heç-heçə nəticələnib. İngiltərə top fərqində də üstündü - 18:10.

Keçirilən 7 matçdan ikisi yoxlama matçı olubsa, dördü seçmə mərhələlərə təsadüf edib. Final mərhələlərindəki yeganə duel isə 2004-cü ildə Portuqaliyada təşkil olunan Avropa çempionatına təsadüf edib. Həmin oyun "Dumanlı albion" təmsilçilərinin 4:2 hesablı qələbəsi ilə başa çatıb.

Dünya çempionatına gəlincə, isə bu komandalar indiyədək bir-biri ilə DÇ oyunlarında qarşılaşmayıblar. Xorvatiyalılar buna qədər mundiallarda ən böyük uğuru 1998-ci ildə əldə ediblər. Həmin dünya çempionatında Balkan təmsilçiləri yarımfinalda Fransa yığmasına uduzaraq (1:2) üçüncü yer uğrunda mübarizə aparmalı olmuşdu. Üçüncü yer uğrunda görüşdə Hollandiyanı 3:2 hesabı ilə məğlub edən "damalılar" bürünc medallara layiq görülmüşdülər.

İngiltərə yığması isə dünya çempionatlarında üçüncü dəfə yarımfinal matçına çıxıb. Britaniyalılar çempion olduqları 1966-cı il dünya çempionatının yarımfinalında Portuqaliyanı 2:1 hesabı ilə məğlub ediblər. İngilislər 1990-cı ildə əsas vaxtı 1:1 hesabı ilə başa çatan oyunda 11 metrlik cərimə zərbələri seriyasında Almaniyaya uduzublar.

*(ardı 4-cü səhifədə)*




# DÇ-2018: Fransa millisi 20 ildən sonra yenidən dünya çempionu adını qazanıb

## *Xorvatiya yalnız finalda uduzaraq, milyonları məyus etdi*

*(əvvəli 3-cü səhifədə)*

### Belçika: finala layiq oyunla üçüncü yeri tutan komanda

**Belçika - İngiltərə 2:0 (1:0)**

**Qollar:** Tomas Mounye,4; Eden Hazard, 82

**Sarı vərəqələr:** Aksel Vitsel, 91 - Con Stons, 52; Harri Magirre, 76

**Hakimlər:** Əlireza Faqani, Reza İbrahim Sokandan, Mohammedreza Mansuri (hamısı İran)

***<u>14 iyul. Sankt-Peterburq. "Zenit Arena", 64406 tamaşaçı</u>***



İyulun 14-də Rusiyada keçirilən futbol üzrə XXI dünya çempionatında üçüncü yer uğrunda görüşdə Belçika və İngiltərə yığma komandaları üz-üzə gəliblər. Sankt-Peterburq şəhərində oynanılan görüşdə Belçika millisi 2:0 hesabı ilə qalib gələrək çempionatın bürünc medallarına sahib olub.İranlı referi Əlireza Faqaninin idarə etdiyi oyunda hesab matçın 4-cü dəqiqəsində açılıb. Belçika yığmasının müdafiəçisi Tomas Mounye adını tabloya yazdırıb - 1:0. Bu qoldan sonra komandaların qarşılıqlı hücumlarına və yaratdıqları təhlükəli vəziyyətlərə baxmayaraq, birinci hissədə hesab dəyişməyib.

Matçın ikinci hissəsində ingilislər hesabı bərabərləşdirmək üçün bir neçə dəfə qol vəziyyəti yaratsalar da, bundan fərqlənə bilməyiblər. İngilislərdən fərqli olaraq rəqibi təhlükəli əks-hücumlarla "tora salmağa" çalışan belçikalılar görüşün 82-ci dəqiqəsində hesab arasındakı fərqi artırıblar. Belçikalıların sürətli əks-hücumu zamanı Kevin De Bruynenin gözəl ötürməsindən sonra qapıçı ilə təkbətək qalan Eden Hazard topu yaxın küncə göndərib - 2:0.

Qalan dəqiqələrdə qapılara əlavə qol vurulmayıb.

Beləliklə, XXI dünya çempionatında üçüncü yer uğrunda görüşdə İngiltərə yığmasına 2:0 hesabı ilə qalib gələn Belçika millisi bürünc medallara sahib olublar. Belçika millisi tarixdə ilk dəfə dünya çempionatını medalla başa vurub. İngiltərə yığması isə 28 il əvvəl olduğu kimi, yenə də medalsız qalıb. Beləliklə, İngiltərə millisi bu mundialda Misir və Panama millilərindən sonra üçüncü dəfə məğlub olan komanda kimi tarixə düşüb.

Bu, britaniyalıların son 4 ildə ən uğursuz seriyasıdı. İngiltərə millisinin ardıcıl 2 məğlubiyyət alması sonuncu dəfə 2014-cü ildə qeydə alınıb.

Maraqlıdı ki, ingilislər onda da DÇ-də üzülmüşdü. Braziliyadakı mundialda britaniyalılar Uruqvay və İtaliya ilə görüşlərdə ardıcıl uduzmuşdu.

Xatırladaq ki, hər iki komanda dünya çempionatlarında ikinci dəfədir bürünc medallar uğrunda qarşılaşıblar. Belçika ilk dəfə 1986-cı ildə üçüncü yer uğrunda əsas vaxtı heç-heçə başa çatan görüşdə Fransaya məğlub olub - 2:4. İngiltərə yığması isə 1990-cı ildə ev sahibi İtaliya millisinə 1:2 hesabı ilə uduzaraq çempionatı medalsız başa vurub.

Bu komandalar Rusiyadakı mundialda ikinci dəfə üz-üzə gəliblər. Çempionatda mübarizəyə G qrupunda başlayan komandalar ilk iki görüşlərini qələbə ilə başa vurublar. Belçikalılar Panamanı 3:0, Tunisi isə 5:2 hesabı ilə məğlub ediblər. İngilislər isə Tunisi 2:1, Panamanı 6:1 hesabı ilə məğlubiyyətə uğradıblar. G qrupunda sonuncu görüşdə "qırmızı şeytanlar" "dumanlı Albion" təmsilçisinə minimal hesabla qalib gəliblər.

Səkkizdəbir finalda Yaponiyanı (3:2), dörddəbir finalda isə beşqat dünya çempionu Braziliyanı (2:1) mübarizədən kənarlaşdıran Belçika millisi yarımfinalda Fransa yığmasına məğlub olub - 0:1.

G qrupunun ikincisi kimi səkkizdəbir finala yüksələn İngiltərə yığması isə bu mərhələdə əsas vaxtı 1:1 hesabı ilə başa çatan görüşdə Kolumbiyanı 11 metrlik cərimə zərbələri seriyasında məğlub edərək (4:3) dörddəbir finala vəsiqə qazanıb. Dörddəbir finalda İsveçə 2:0 hesabı ilə qalib gələn ingilislər Xorvatiya ilə yarımfinal görüşündə hesabda irəli olmalarına baxmayaraq, oyunu məğlub tərk ediblər - 1:2.

İndiyədək 14 dəfə mundiallarda iştirak edən "dumanlı albion" təmsilçisi 1966-cı ildə ev sahibliyi etdiyi səkkizinci dünya çempionatının finalında Almaniya yığmasına 4:2 hesabı ilə qalib gələrək çempion olub. Xatırladaq ki, həmin görüşdə hesab 2:2 olarkən azərbaycanlı yan xətt hakimi Tofiq Bəhramovun rəyi əsasında baş hakim ingilislərin hücumçusu Herstin qolunun qeydə alınması barədə qərar qəbul edib. Bu qoldan sonra bir dəfə də fərqlənən İngiltərə yığması tarixində ilk və yeganə çempionluğuna nail olub.

İngiltərə yığması mundialda yeganə komandadır ki, heyətindəki futbolçuların hamısı ölkə çempionatında - Premyer Liqada çıxış edir.

### "Damalılar" Rusiyanı "könüllərin çempionu" kimi tərk etdilər

**Fransa - Xorvatiya - 4:2 (2:1)**

**Qollar:** Mario Mandzukiç, 18 (avtoqol), Antuan Qrizman, 38 (pen.), PolPoqba, 59, Kilian Mbappe, 65 - İvan Perişiç, 28, Mario Mandzukiç, 69

**Sarı vərəqələr:** Nqolo Kante, 27; Lukas Hernandes, 41 - Şime Vrsaliko, 92

**Hakimlər:** Nestor Pitana, Ernan Maydana, Xuan Pablo Belatti (hamıs Argentina)

***<u>15 iyul. Moskva. "Lujniki" stadionu, 78011 tamaşaçı</u>***

Rusiyada keçirilən dünya çempionatına yekun vurulub. 32 gün davam edən mundial final matçı ilə başa çatıb.

Həlledici qarşılaşmada Fransa və Xorvatiya milliləri üz-üzə gəlib. Finala qədər məğlub olmayan rəqiblər dördilliyin ən yaxşısı olmaq üçün mübarizə aparıblar. Azarkeşlərin 6 qola şahidlik etdiyi final matçı olduqca maraqlı mübarizəyə səhnə olub. Moskvadakı "Lujniki" stadionunda oynanılan görüşdə fransızlar ikiqat dünya çempionu olmaq, xorvatiyalılar isə kuboku ilk dəfə başları üzərinə qaldırmaq üçün mübarizə aparıblar. Çempionatının sonuncu - 64-cü oyununu argentinalı referi Nestor Pitana idarə edib. Bu matç müəyyən mənada Xorvatiya yığması üçün revanş xarakteri daşıyıb. Balkan təmsilçisi mundiallarda debüt etdiyi 1998-ci ildəki çempionatın yarımfinalında məhz ev sahibi Fransaya məğlub olub. Həmin görüşdə 1:2 hesabı ilə uduzan xorvatiyalılar üçüncü yer uğrunda matçda Hollandiyaya qalib gələrək (2:1) bürünc medallara layiq görülüblər. 1998-ci ildə Fransada təşkil olunan DÇ-də rəqib qapılarına 6 dəfə yol tapan xorvatiyalı hücumçu Davor Şuker çempionatın ən məhsuldar futbolçusu olub.

Xorvatiyalılar həmin dünya çempionatından sonra 2002-ci, 2006-cı və 2014-cü illərdəki mundiallarda iştirak etmək hüququ qazansa da, mübarizəni qrup mərhələlərində dayandırıb.

1930-cu ildə ilk dünya çempionatında iştirak edən dörd Avropa təmsilçisindən biri olan Fransa yığması isə indiyədək 14 dəfə mundiallarda yer alıb. 1998-ci ildə dünya çempionu adını qazanan Fransa millisi 2006-cı ildə finalda İtaliyaya uduzub. Komanda 1958-ci və 1986-cı illərdə dünya çempionatlarının bürünc medallarını qazanıb. 1958-ci ildə Fransa millisinin hücumçusu Jüst Fonten 13 qolla çempionatın bombardiri olub. O, bir çempionatda ən çox qol vuran futbolçu rekordunu bu günədək özündə saxlayır.



Builki mundialda heyətinin əksəriyyəti gənc futbolçulardan ibarət olan Fransa yığması finala vəsiqə qazanmaqla yeni rekord müəyyənləşdirib. Belə ki, Fransa millisi son 20 il ərzində dünya və Avropa çempionatları da daxil olmaqla ümumilikdə 5 dəfə finalda oynamaq hüququ qazanıb.

Rusiyadakı mundialda mübarizəyə C qrupunda başlayan Didye Deşamın yetirmələri Avstraliyanı 2:1, Perunu isə 1:0 hesabı ilə məğlub ediblər. Üçüncü görüşdə Danimarka ilə qolsuz heç-heçə edərək qrup birincisi kimi səkkizdəbir finala yüksələn Fransa millisi bu mərhələdə Argentina yığmasını mübarizədən kənarlaşdırıb - 4:3. Fransa yığması dörddəbir finalda Uruqvayı (2:0), yarımfinalda isə Belçikanı (1:0) məğlub edərək tarixində üçüncü dəfə dünya çempionatının finalına yüksəlib.

XXI dünya çempionatının D qrupunda Nigeriya (2:0), Argentina (3:0) və İslandiya (2:1) seçmələrinə qalib gələn xorvatiyalılar qrup mərhələsində 9 xal toplayan üç komandadan biri olub. Qrup birincisi kimi səkkizdəbir finala çıxan Xorvatiya yığması finala gedən yolda keçirdiyi bütün görüşlərin əsas vaxtında qalib gələ bilməyib. Səkkizdəbir finalda Danimarka ilə 1:1 hesablı heç-heçə edən Xorvatiya yığması 11 metrlik cərimə zərbələri seriyasında qalib gəlib - 3:2. Balkan təmsilçisi eyni aqibəti dörddəbir finalda Rusiya yığmasına yaşadıb. Belə ki, 2:2 hesablı heç-heçədən sonra xorvatiyalılar yenə də 11 metrlik cərimə zərbələri seriyasında qələbə qazanıblar - 4:3. İngiltərə millisi ilə yarımfinal matçının 4-cü dəqiqəsində öz qapısında top görməsinə baxmayaraq, möhtəşəm geri dönüş edən Balkan təmsilçisi 68-ci dəqiqədə İvan Perişiçin zərbəsi ilə hesabı bərabərləşdirib, 109-cu dəqiqədə isə Mario Mandzukiçin qolu ilə tarixində ilk dəfə finala yüksəlib.

Final oyununa gəlincə isə matça xorvatiyalılar daha fəal başlayıblar. Matçda ilk təhlükəli vəziyyəti də elə "damalılar" yaradıblar. Matçın 12-ci dəqiqəsində İvan Rakitiçin rəqibin cərimə meydançasına hava ötürməsindən sonra İvan Perişiç topu istədiyi kimi ram edə bilməyib və top meydanı tərk edib.Matçın 19-cu dəqiqəsində Fransa millisi görüşdə hesab açıb. Antuan Qrizmanın yerinə yetirdiyi cərimə zərbəsindən hava ötürməsindən sonra Rafael Varanın başla qapıya göndərdiyi top Mario Mandzukiçə toxunduqdan sonra qapıya daxil olub - 1:0.Avtoqola imza atan Mario Mandzukiç bu qolla tarixə düşüb.Belə ki, Xorvatiyanın hücumçusu qapıları səhv salmaqla final matçında öz qapısına qol vuran ilk oyunçu olub. Qoldan sonra hesabı bərabərləşdirmək üçün təzyiqləri daha da artıran Xorvatiya yığması görüşün 28-ci dəqiqəsində hesabı bərabərləşdirib. İvan Perişiç fərqlənərək Xorvatiya yığmasına ümid verən qolu vurub. Matçın 34-cü dəqiqəsində Fransa yığmasının yerinə yetirdiyi küncdən zərbə ilə cərimə meydançasına ötürmə zamanı topun İvan Perişiçin əlinə dəyməsi ilə əlaqədar yaranan mübahisəli vəziyyət VAR sistemi ilə yenidən dəyərləndirilib.

Argentinalı referi Nestor Pitananın matçın 38-ci dəqiqəsində Xorvatiya yığmasının qapısına təyin etdiyi 11 metrlik cərimə zərbəsini dəqiq yerinə yetirən Antuan Qrizman Fransanı yenidən hesabda irəli çıxarıb - 2:1.

Xorvatiya yığması görüşün 45+1-ci dəqiqəsində hesabı bərabərləşdirmək üçün gözəl imkan yaratsalar da, bundan yararlana bilməyiblər.

Beləliklə, matçın ilk hissəsi Fransa yığmasının 2:1 hesablı üstünlüyü ilə başa çatıb. Fransızlar birinci hissədə rəqib qapısına bir dəqiq zərbə endirmələrinə baxmayaraq, öz aktivlərinə iki qol yazdırmağı bacarıblar.

Fasilədən sonra Fransa yığması oyunun 59-cu dəqiqəsində hesab arasındakı fərqi iki topa çatdırıb. Sürətli əks-hücum zamanı Pol Poqba fərqlənib - 3:1. Matçın 65-ci dəqiqəsində Mbappe Fransa millisinin dördüncü qolunu Xorvatiya yığmasının qapısından keçirib. Luka Hernandesdən ötürmə alan Kaylian Mbappenin qüvvətli zərbəsi qapıçı Daniel Subaşiç üçün əlçatmaz olub - 4:1.

Bu qol Mbappe üçün xüsusilə əlamətdar olub. Belə ki, o, braziliyalı Peledən sonra final qarşılaşmasında 20 yaşına çatmamış fərqlənən ikinci futbolçu kimi tarixə düşüb. Lakin Xorvatiya yığmasının bu qola cavabı çox gecikməyib. Oyunun 69-cu dəqiqəsində qapıçı Uqo Lorisə çaşdıran Mario Mandzukiç qapıçının səhvindən istifadə edərək hesab arasındakı fərqi azaldıb - 4:2. Oyunun qalan dəqiqələrində əlavə qol olmayıb və matç Fransa yığmasının qələbəsi ilə başa çatıb. Beləliklə, futbol üzrə XXI dünya çempionatın finalında Xorvatiya yığmasına 4:2 hesabı ilə qalib gələn Fransa seçməsi tarixində ikinci dəfə dünya çempionu adını qazanıb. Fransızlar son 20 ildə oynadığı üçüncü final qarşılaşmasının ikisində qalib gəlməyi bacarıblar.

Fransa yığmasının baş məşqçisi Didye Deşam 1998-ci ildə kapitan kimi qazandığı dünya çempionluğunu bu dəfə baş məşqçi kimi əldə edib.

Qaliblərin mükafatlandırılması mərasimində FIFA prezidenti Canni İnfantino, ev sahibi Rusiya Federasiyasının Prezidenti Vladimir Putin, Fransa Prezidenti Emmanuel Makron və Xorvatiya Prezidenti Kolinda Qrabar-Kitaroviç iştirak ediblər.

Mükafatlandırma mərasimində 2014-cü ildə futbol üzrə dünya çempionu Almaniya millisinin kapitanı olmuş Filip Lam mundialın kubokunu arenaya gətirib.

Xorvatiya yığmasının kapitanı Luka Modriç çempionatın ən yaxşı futbolçusu seçilib və "Qızıl top"a sahib çıxıb. Fransa millisinin gənc hücumçusu Kilian Mbappe isə mundialın ən yaxşı gənc futbolçusu elan edilib. Ən yaxşı qapıçı adına isə Belçika millisinin qapıçısı Tibo Kurtua layiq görülüb. 6 qolla hamıdan çox rəqiblərini məyus edən Harri Keyn isə mundialın bombardiri kimi fərqləndirilib.

Sonra dünya çempionatında ikinci yeri tutan Xorvatiya yığmasının futbolçularına mundialın gümüş medalları təqdim edilib.

Daha sonra XXI dünya çempionu Fransa millisinin üzvlərinə qızıl medallar təqdim olunub.

Nəhayət, çempionatın ən çox gözlənilən anı yetişib. FIFA prezidenti Canni İnfantino XXI dünya çempionu olan Fransa yığmasının kapitanı Uqo Lorisə mundialın kubokunu təqdim edib.

Beləliklə, iyunun 14-də Moskvadakı "Lujniki" stadionunda start götürən XXI dünya çempionatı iyulun 15-də elə həmin arenada da Fransa yığmasının çempionluğu ilə başa çatıb.

Növbəti - XXII dünya çempionatı isə 2022-ci ildə Qətərdə keçiriləcək.




## A qrupu

| matç | tarix | vaxt | şəhər (stadion) | oyun | |
|---|---|---|---|---|---|
| 1. | 14 iyun | Saat 19:00 | Moskva ("Lujniki" stadionu) | Rusiya - S. Ərəbistanı | 5:0 |
| 2. | 15 iyun | Saat 16:00 | Yekaterinburq ("Sinara Arena") | Misir - Uruqvay | 0:1 |
| 17. | 19 iyun | Saat 22:00 | Sankt-Peterburq ("Zenit Arena") | Rusiya - Misir | 3:1 |
| 19. | 20 iyun | Saat 19:00 | Rostov ("Levberdon Arena") | Uruqvay - S. Ərəbistanı | 1:0 |
| 33. | 25 iyun | Saat 18:00 | Volqoqrad ("Sentral" stadionu) | S. Ərəbistanı - Misir | 2:1 |
| 34. | 25 iyun | Saat 18:00 | Samara ("Kosmos Arena") | Uruqvay - Rusiya | 3:0 |

| | Komandalar | 1 | 2 | 3 | 4 | Q | H | M | T/F | X |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | Uruqvay | | 1:0 | 1:0 | 3:0 | 3 | 0 | 0 | 5-0 | 9 |
| 2 | Rusiya | 5:0 | | 3:1 | 0:3 | 2 | 0 | 1 | 8-4 | 6 |
| 3 | S.Ərəbistanı | 0:5 | 0:1 | | 2:1 | 1 | 0 | 2 | 2-7 | 3 |
| 4 | Misir | 0:1 | 1:3 | 1:2 | | 0 | 0 | 3 | 2-6 | 0 |

## B qrupu

| matç | tarix | vaxt | şəhər (stadion) | oyun | |
|---|---|---|---|---|---|
| 3. | 15 iyun | Saat 19:00 | Sankt-Peterburq ("Zenit Arena") | Mərakeş - İran | 0:1 |
| 4. | 15 iyun | Saat 22:00 | Soçi ("Fişt" stadionu) | Portuqaliya - İspaniya | 3:3 |
| 18. | 20 iyun | Saat 16:00 | Moskva ("Lujniki" stadionu) | Portuqaliya - Mərakeş | 1:0 |
| 20. | 20 iyun | Saat 22:00 | Kazan ("Kazan Arena") | İran - İspaniya | 0:1 |
| 35. | 25 iyun | Saat 22:00 | Saransk ("Yubileyni" stadionu) | İran - Portuqaliya | 1:1 |
| 36. | 25 iyun | Saat 22:00 | Kalininqrad ("Baltika Arena") | İspaniya - Mərakeş | 2:2 |

| | Komandalar | 1 | 2 | 3 | 4 | Q | H | M | T/F | X |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | İspaniya | | 3:3 | 1:0 | 2:2 | 1 | 2 | 0 | 6-5 | 5 |
| 2 | Portuqaliya | 3:3 | | 1:0 | 1:1 | 1 | 2 | 0 | 5-4 | 5 |
| 3 | İran | 1:0 | 0:1 | | 1:1 | 1 | 1 | 1 | 2-2 | 4 |
| 4 | Mərakeş | 0:1 | 0:1 | 2:2 | | 0 | 1 | 2 | 2-4 | 1 |

## C qrupu

| matç | tarix | vaxt | şəhər (stadion) | oyun | |
|---|---|---|---|---|---|
| 5. | 16 iyun | Saat 14:00 | Kazan ("Kazan Arena") | Fransa - Avstraliya | 2:1 |
| 7. | 16 iyun | Saat 20:00 | Saransk ("Yubileyni" stadionu) | Peru - Danimarka | 0:1 |
| 21. | 21 iyun | Saat 16:00 | Samara ("Kosmos Arena") | Danimarka - Avstraliya | 1:1 |
| 22. | 21 iyun | Saat 19:00 | Yekaterinburq ("Sinara Arena") | Fransa - Peru | 1:0 |
| 37. | 26 iyun | Saat 18:00 | Soçi ("Fişt" stadionu) | Avstraliya - Peru | 0:2 |
| 38. | 26 iyun | Saat 18:00 | Moskva ("Lujniki" stadionu) | Danimarka - Fransa | 0:0 |

| | Komandalar | 1 | 2 | 3 | 4 | Q | H | M | T/F | X |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | Fransa | | 2:1 | 1:0 | 0:0 | 2 | 1 | 0 | 3-1 | 7 |
| 2 | Danimarka | 1:0 | | 1:1 | 0:0 | 1 | 2 | 0 | 2-1 | 5 |
| 3 | Peru | 0:1 | 0:1 | | 2:0 | 1 | 0 | 2 | 2-2 | 3 |
| 4 | Avstraliya | 1:2 | 1:1 | 0:2 | | 0 | 1 | 2 | 2-5 | 1 |

## D qrupu

| matç | tarix | vaxt | şəhər (stadion) | oyun | |
|---|---|---|---|---|---|
| 6. | 16 iyun | Saat 17:00 | Moskva ("Spartak" stadionu) | Argentina - İslandiya | 1:1 |
| 8. | 16 iyun | Saat 23:00 | Kalininqrad ("Baltika Arena") | Xorvatiya - Nigeriya | 2:0 |
| 23. | 21 iyun | Saat 22:00 | Nijniy Novqorod ("Volqa Arena") | Argentina - Xorvatiya | 0:3 |
| 25. | 22 iyun | Saat 19:00 | Volqoqrad ("Sentral" stadionu) | Nigeriya - İslandiya | 2:0 |
| 39. | 26 iyun | Saat 22:00 | Rostov ("Levberdon Arena") | İslandiya - Xorvatiya | 1:2 |
| 40. | 26 iyun | Saat 22:00 | Sankt-Peterburq ("Zenit Arena") | Nigeriya - Argentina | 2:1 |

| | Komandalar | 1 | 2 | 3 | 4 | Q | H | M | T/F | X |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | Xorvatiya | | 2:0 | 3:0 | 2:1 | 3 | 0 | 0 | 7-1 | 9 |
| 2 | Argentina | 1:1 | | 0:3 | 2:1 | 1 | 1 | 1 | 3-5 | 4 |
| 3 | Nigeriya | 0:2 | 2:0 | | 1:2 | 1 | 0 | 2 | 3-4 | 3 |
| 4 | İslandiya | 1:1 | 0:2 | 1:2 | | 0 | 1 | 1 | 2-5 | 1 |

## E qrupu

| matç | tarix | vaxt | şəhər (stadion) | oyun | |
|---|---|---|---|---|---|
| 9. | 17 iyun | Saat 16:00 | Samara ("Kosmos Arena") | Kosta-Rika - Serbiya | 0:1 |
| 11. | 17 iyun | Saat 22:00 | Rostov ("Levberdon Arena") | Braziliya - İsveçrə | 1:1 |
| 24. | 22 iyun | Saat 16:00 | Sankt-Peterburq ("Zenit Arena") | Braziliya - Kosta-Rika | 2:0 |
| 26. | 22 iyun | Saat 22:00 | Kalininqrad ("Baltika Arena") | Serbiya - İsveçrə | 1:2 |
| 43. | 27 iyun | Saat 22:00 | Nijniy Novqorod ("Volqa Arena") | İsveçrə - Kosta-Rika | 2:2 |
| 44. | 27 iyun | Saat 22:00 | Moskva ("Spartak" stadionu) | Serbiya - Braziliya | 0:2 |

| | Komandalar | 1 | 2 | 3 | 4 | Q | H | M | T/F | X |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | Braziliya | | 1:1 | 2:0 | 2:0 | 2 | 1 | 0 | 5-0 | 7 |
| 2 | İsveçrə | 1:1 | | 2:1 | 2:2 | 1 | 0 | 2 | 5-4 | 3 |
| 3 | Serbiya | 1:0 | 1:2 | | 0:2 | 1 | 0 | 2 | 2-4 | 3 |
| 4 | Kosta-Rika | 0:1 | 0:2 | 2:2 | | 0 | 1 | 2 | 2-5 | 1 |

## F qrupu

| matç | tarix | vaxt | şəhər (stadion) | oyun | |
|---|---|---|---|---|---|
| 10. | 17 iyun | Saat 19:00 | Moskva ("Lujniki stadionu") | Almaniya - Meksika | 0:1 |
| 12. | 18 iyun | Saat 16:00 | Nijniy Novqorod ("Volqa Arena") | İsveç - Cənubi Koreya | 1:0 |
| 28. | 23 iyun | Saat 19:00 | Rostov ("Levberdon Arena") | Cənubi Koreya - Meksika | 1:2 |
| 29. | 23 iyun | Saat 22:00 | Soçi ("Fişt" stadionu) | Almaniya - İsveç | 2:1 |
| 41. | 27 iyun | Saat 18:00 | Kazan ("Kazan Arena") | Cənubi Koreya - Almaniya | 2:0 |
| 42. | 27 iyun | Saat 18:00 | Yekaterinburq ("Sinara Arena") | Meksika - İsveç | 0:3 |

| | Komandalar | 1 | 2 | 3 | 4 | Q | H | M | T/F | X |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | İsveç | | 1:0 | 1:2 | 3:0 | 2 | 0 | 1 | 5-2 | 6 |
| 2 | Meksika | 1:0 | | 2:1 | 0:3 | 2 | 0 | 1 | 3-4 | 6 |
| 3 | Cənubi Koreya | 0:1 | 1:2 | | 2:0 | 1 | 0 | 2 | 3-3 | 3 |
| 4 | Almaniya | 0:1 | 2:1 | 0:2 | | 1 | 0 | 2 | 2-4 | 3 |

## G qrupu

| matç | tarix | vaxt | şəhər (stadion) | oyun | |
|---|---|---|---|---|---|
| 13. | 18 iyun | Saat 19:00 | Soçi ("Fişt" stadionu) | Belçika - Panama | 3:0 |
| 14. | 18 iyun | Saat 22:00 | Volqoqrad ("Sentral" stadionu) | Tunis - İngiltərə | 1:2 |
| 27. | 23 iyun | Saat 16:00 | Moskva ("Spartak" stadionu) | Belçika - Tunis | 5:2 |
| 30. | 24 iyun | Saat 16:00 | Nijniy Novqorod ("Volqa Arena") | İngiltərə - Panama | 6:1 |
| 47. | 28 iyun | Saat 22:00 | Kalininqrad ("Baltika Arena") | İngiltərə - Belçika | 0:1 |
| 48. | 28 iyun | Saat 22:00 | Saransk ("Yubileyni" stadionu) | Panama - Tunis | 1:2 |

| | Komandalar | 1 | 2 | 3 | 4 | Q | H | M | T/F | X |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | Belçika | | 3:0 | 5:2 | 1:0 | 3 | 0 | 0 | 9-2 | 9 |
| 2 | İngiltərə | 2:1 | | 6:1 | 0:1 | 2 | 0 | 1 | 8-3 | 6 |
| 3 | Tunis | 1:2 | 2:5 | | 2:1 | 1 | 0 | 2 | 5-8 | 3 |
| 4 | Panama | 0:3 | 1:6 | 1:2 | | 0 | 0 | 3 | 2-11 | 0 |

## H qrupu

| matç | tarix | vaxt | şəhər (stadion) | oyun | |
|---|---|---|---|---|---|
| 15. | 19 iyun | Saat 16:00 | Saransk ("Yubileyni" stadionu) | Kolumbiya - Yaponiya | 1:2 |
| 16. | 19 iyun | Saat 19:00 | Moskva ("Spartak" stadionu) | Polşa - Seneqal | 1:2 |
| 31. | 24 iyun | Saat 19:00 | Yekaterinburq ("Sinara Arena") | Yaponiya - Seneqal | 2:2 |
| 32. | 24 iyun | Saat 22:00 | Kazan ("Kazan Arena") | Polşa - Kolumbiya | 0:3 |
| 45. | 28 iyun | Saat 18:00 | Samara ("Kosmos Arena") | Seneqal - Kolumbiya | 0:1 |
| 46. | 28 iyun | Saat 18:00 | Volqoqrad ("Sentral" stadionu) | Yaponiya - Polşa | 0:1 |

| | Komandalar | 1 | 2 | 3 | 4 | Q | H | M | T/F | X |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | Kolumbiya | | 1:2 | 3:0 | 1:0 | 2 | 0 | 1 | 5-2 | 6 |
| 2 | Yaponiya | 2:1 | | 2:2 | 0:1 | 1 | 1 | 1 | 4-4 | 4 |
| 3 | Seneqal | 2:1 | 2:2 | | 0:1 | 1 | 0 | 2 | 4-4 | 3 |
| 4 | Polşa | 1:2 | 0:3 | 1:0 | | 1 | 0 | 2 | 2-5 | 3 |




*Fransa 4*
*Argentina 3*
**Fransa 2**

*Uruqvay 2*
*Portuqaliya 1*
**Uruqvay 0**

**Fransa 1**

*Braziliya 2*
*Meksika 0*
**Braziliya 1**

*Belçika 3*
*Yaponiya 2*
**Belçika 2**

**Belçika 0**

**Fransa 4**



**Xorvatiya 2**

*İspaniya 1(3)*
*Rusiya 1(4)*
**Rusiya 2 (3)**

*Xorvatiya 1(3)*
*Danimarka 1(2)*
**Xorvatiya 2 (4)**

**Xorvatiya 2**

*İsveç 1*
*İsveçrə 0*
**İsveç 0**

*Kolumbiya 1(3)*
*İngiltərə 1(4)*
**İngiltərə 2**

**İngiltərə 1**

*3-cü yer*

**Belçika**

**Belçika 2** – **İngiltərə 0**




# Dünya çempionatını bəzəyən azarkeşlər və futbolu sevən "aşiqlər"

*Azarkeşlərsiz heç bir idman tədbirini təsəvvür etmək olmaz. Rusiyada keçirilən futbol üzrə dünya çempionatında azarkeşlər mundiala bir başqa rəng qatdılar. DÇ-2018-də 32 komanda mübarizə aparsa da, bu möhtəşəm idman tədbirini digər ölkələrin azarkeşləri də izlədilər. Amma əsas diqqət final mərhələsinə vəsiqə qazanan ölkələrin azarkeşlərinə yönəldi. Belə ki, belçikalılar çempionatın "ən səliqəsiz", ingilislər "ən davakar", yaponiyalılar və seneqallılar "ən təmizkar", nigeriyalılar isə "Rusiyadan əl çəkməyən" fanatları ilə dünya mediasının manşetinə çevrildilər. Ümumilikdə isə amerikalılar DÇ-də digər qitə təmsilçilərindən fərqləndilər. Onlar azarkeş sayına və azarkeşliyinə görə diqqət mərkəzində oldular. Amma təəssüf ki, həmin qitəni təmsil edən yığma komandalar minlərlə azarkeşi öz evinə məyus yola saldılar. Yenə həmişəki kimi islandiyalılar öz vətənlərini "boş qoyub" Rusiyaya gəldilər.*

*Dünya çempionatı başa çatdı. Futbol fanatlarının Rusiyaya gəlişindən həm dünya futbolu, həm də "şimal qonşularımız" qazandılar. Dünya futbolu milyonlarla gəlir əldə etdi. Ev sahibləri isə ölkəni təcəssüm etdirən atributlardan xeyli mənfəət əldə etdilər. Hər bir azarkeş bu ölkədən ən azı açarlıq, talisman, "uşanka" (rus papağı) və digər suvenirləri alıb, öz vətəninə xatirə olaraq apardı.*
























*Xüsusi buraxılışı hazırladılar:*
*Anar Əhmədov,*
*Azər Əlizadə*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
KÜTLƏVİ İNFORMASIYA VASİTƏLƏRİNİN
İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

*“Uşaq və gənclərin fiziki və mənəvi inkişafı”*

*İdmanın kütləviliyi insanların sağlamlığı, sağlam həyat tərzi deməkdir.*

*İlham Əliyev*

# “Gənclər bizim ümidimiz, gələcəyimizdir”

***Ölkədə gənclərlə iş sahəsində fəallıq nümayiş etdirən təşkilatlar kifayət qədərdir. Bu sahədə əsas məsuliyyət gənclər və idman idarələrinin üzərinə düşür. Nərimanov rayon Gənclər və İdman İdarəsi (GİI) Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin struktur qurumu kimi rayon ərazisində gənclərlə iş, bədən tərbiyəsi və idman sahələrində dövlət siyasətini uğurla həyata keçirir. İdarə öz fəaliyyətini Nərimanov Rayon İcra Hakimiyyəti, Yeni Azərbaycan Partiyası Nərimanov Rayon Təşkilatı, bələdiyyə orqanları, huquq-mühafizə orqanları, hökumət və qeyri-hökumət təşkilatları, idman federasiyaları və cəmiyyətləri, habelə digər ictimai birliklərlə əlaqəli şəkildə qurub.***

***“Olimpiya dünyası” qəzetinin “Uşaq və gənclərin fiziki inkişafı” layihəsi çərçivəsində budəfəki qonağı Nərimanov Rayon Gənclər və İdman İdarəsinin rəisi, Yeni Azərbaycan Partiyası Nərimanov Rayon Təşkilatının sədr müavini Nəcəf Novruzovdur. Nəcəf müəllim işlədiyi qurumun fəaliyyəti, görülən işlər və gələcək planları barədə danışdı.***



***- Nəcəf müəllim, Nərimanov Rayon Gənclər və İdman İdarəsi fəal işləyən qurumlardan biridir. Yaxşı olar ki, bu barədə oxucularımıza da məlumat verəsiniz.***

- Bizim işimiz çox maraqlıdır. Çünki gənclərlə işləyirik. Gənclər özləri maraqlıdırlar, yaratmaq həvəsi, sevgi ilə doludurlar. İnsan hansı sahədə çalışırsa çalışsın, işini sevməlidir, işləməyə həvəs olmalıdır. Gənclərlə milli qəhrəmanların, Olimpiya, dünya və Avropa çempionlarının görüşlərini təşkil etmək, hansısa şairin və ya yazıçının gecəsini keçirmək, eləcə də, hərbi xidmətə gedən çağırışçıların yolasalma və qarşılanma mərasimləri, anım günlərinin təşkili onların tərbiyəsində böyük rol oynayır. Belə görüşlər gənc nəslin əsl şəxsiyyət kimi formalaşmasına müsbət təsir edir. Bundan başqa, orta məktəblərdə müxtəlif mövzularda inşa və rəsm müsabiqələrinin təşkili istedadlı şagirdlərin üzə çıxarılmasına yol açır. Bir sözlə, iş çoxdur, əsas həvəs olsun.

***- Özünüz haqda məlumat verərdiniz.***

- 1981-ci il yanvarın 8-də Naxçıvan MR-nın Babək rayonunun Cəhri kəndində anadan olmuşam. İlk təhsilimi elə həmin kəndin orta məktəbində almışam. Uşaqlığım çətin illərə təsadüf edib. Mənfur qonşularımızın bizimlə ərazi iddiasına qalxması səbəbindən Naxçıvan blokada şəraitində yaşayırdı. Ulu öndər, ümummilli lider Heydər Əliyev belə bir çətin gündə köməyə gəldi, əhalini ağır vəziyyətdən qurtardı. Blokadada olan Muxtar Respublikada orta məktəbi yaxşı qiymətlərlə bitirmək asan deyildi. Orta məktəbi bitirdikdən sonra sənədlərimi Naxçıvan Dövlət Universitetinə vermək istəsəm də, sonra fikrimi dəyişdim. Ali təhsil almaq üçün paytaxt Bakıya üz tutdum. 1998-ci ildə Azərbaycan Bədən Tərbiyə və İdman İnstitutuna (indiki AzDBTİA) qəbul oldum. 3-cü kursda oxuyanda Bakı Şəhər Gənclər və İdman Baş İdarəsində çalışmağa başladım. Artıq 20 ildir ki, idman sahəsində çalışıram. 2015-ci ildə Gənclər və İdman Nazirliyinin 20 illik yubileyində ölkə rəhbərinin Sərəncamı ilə “Dövlət qulluğunda fərqlənməyə görə” medalı ilə təltif edilmişəm. Bu, mənim üçün böyük şərəfdir.

***- Görünür, fəal tələbələrdən olmusunuz.***

- Düşünürəm ki, cəmiyyətimizdə hər zaman fəal və savadlı tələbələrə, ümumiyyətlə, gənc kadrlara ehtiyac vardır. Həmin idarədə yarım ştat vahidi ilə işçiyə ehtiyac var idi və bu işə məni məsləhət görmüşdülər. O vaxt Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi hazırda Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev idi.

***- Ötən il rayonda hansı tədbirlər həyata keçirilib?***

- 2017-ci il ərzində Nərimanov Rayon Gənclər və İdman İdarəsi tərəfindən 174 tədbir keçirilib. Bu tədbirlərdə 16 mindən çox uşaq, yeniyetmə və gənc iştirak edib. Dövlətin gənclər və idman siyasətini əsas tutan tədbirlər proqramı çərçivəsində yeniyetmə və gənclərin asudə vaxtlarının səmərəli təşkilinə mühüm diqqət yetirilib. Bu istiqamətdə gənclərin vətənpərvərlik ruhda tərbiyə olunmasına yönəldilən görüş və seminarlar, onların zərərli vərdişlərdən uzaqlaşmaları və sağlam ruhda böyümələri üçün maarifləndirici tədbirlər təşkil edilib. Bundan başqa, kütləvi bədən tərbiyəsi və idmanın inkişafı üçün müxtəlif yarış və çempionatlar keçirilib.

Ötən il 1825 nəfər uşaq, yeniyetmə və gənc idarəmiz tərəfindən diplom, sertifikat, fəxri fərman və təşəkkürnamə ilə təltif olunub. İl ərzində Nərimanov Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə keçirilən 70-ə yaxın mühüm əhəmiyyətli tədbir 30-dan artıq KİV-də işıqlandırılıb.

***- Bəs bu ilin 6 ayı ərzində hansı işlər görülüb?***

- Nərimanov Rayon Gənclər və İdman İdarəsinin bu il keçirdiyi müxtəlif tədbirlərdə 9200 nəfərdən çox uşaq, yeniyetmə və gənc iştirak edib. Cari ilin 6 ayı ərzində İdarə tərəfindən 1020 nəfər uşaq, yeniyetmə və gənc diplom, sertifikat, fəxri fərman və təşəkkürnamə ilə təltif olunub. Ümumiyyətlə, il ərzində təhsildə, idmanda fəqrlənən uşaq və gənclər idarəmiz tərəfindən diplom və qiymətli hədiyyələrlə mükafatlandırılır.

Nərimanov rayonunda yerləşən orta ümumtəhsil məktəblərində təhsil alan şagirdlər arasında daim maarifləndirmə işləri aparılır, onların zərərli vərdişlərdən uzaqlaşdırılaraq bədən tərbiyəsi və idmana cəlb edilməsi istiqamətində mühüm işlər görülür.

## “Vətəni qorumaq hər birimizin borcudur”

***- Ölkəmiz Ermənistanla münaqişə şəraitində yaşayır. Belə bir vaxtda gənclərdən nə tələb olunur?***

- Bu Vətən hər birimizindir və onu qorumaq borcumuzdur. Azərbaycanın əzəli və əbədi torpaqlarının Ermənistan və onun havadarları tərəfindən işğalı yolverilməzdir və beynəlxalq normalara sığmır. Torpaqlarımız Ali Baş Komandan İlham Əliyevin qətiyyətli və düzgün siyasəti nəticəsində düşmən işğalından azad ediləcək və biz tezliklə qələbə gününü qeyd edəcəyik. Çünki bizim güclü ordumuz və öz torpağını, Vətənini sevən gənclərimiz vardır. Hamımız inanırıq ki, tezliklə, bu xalqın təqvimindəki hüznlü tarixləri zəfər dolu şanlı günlər əvəz edəcək.

Gənclərimizdə vətənpərvərlik hissi çox yüksəkdir. Bu, bizi çox sevindirir. Aprel döyüşlərində Nərimanov Rayon Gənclər və İdman İdarəsinin qarşısı gənclərlə dolu idi. Təsəvvür edin, təxminən 3700 nəfər gənc könüllü hərbi xidmətə getmək üçün bizə müraciət etmişdi. Azərbaycanın mərd və bilikli gənclərinin sayının çox olması bizim qürurumuzdur.

***- İdmanın təbliği və kütləviliyi istiqamətində rayonda hansı işlər görülür?***

- Dövlət proqramına uyğun olaraq, uşaq və gənclərin zərərli vərdişlərdən uzaqlaşaraq sağlam həyat tərzi keçirmələri, idmana cəlb edilməsi istiqamətində məqsədyönlü işlər aparılır. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin, Nərimanov Rayon İcra Hakimiyyətinin qarşıya qoyduğu vəzifələri yerinə yetirməyə çalışırıq. Elə olur ki, tədbirlər proqramında nəzərdə tutulduğundan çox tədbirlər təşkil edirik. İdmanın təbliğinə gəlincə, xüsusilə, orta məktəb proqramına daxil edilən idman növlərinə daha çox diqqət yetiririk. Gənc nəslin ümumi fiziki hazırlığı baxımından atletika, üzgüçülük, futbol, şahmat, gimnastika çox önəmlidir. Bu idman növlərinin sirrlərinə yiyələndikdən sonra karate, güləş, taekvondo və s. məşğul olmaq olar. Düşünürəm ki, idman növünün seçimi ilə bağlı 10 yaşdan sonra qərar vermək mümkündür.

Nərimanov rayonu ərazisində Gənclər və İdman Nazirliyinin 3, Təhsil Nazirliyinin isə 4 uşaq-gənclər idman məktəbi fəaliyyət göstərir. Bu məktəblərə dövlət büdcəsindən vəsait ayrılır. Rayon ərazisində yaşayan hər bir uşaq, yeniyetmə və gənc burada ödənişsiz idmanla məşğul olmaq imkanına malikdir. Bunlardan başqa, rayonda özəl idman klubları da vardır. Özəl klublarda məşğul olmaq istəyən şəhid, əlil, aztəminatlı ailələrin, idmançıların uşaqlarına güzəşt edilir.

Düşünürəm ki, orta təhsil məktəblərdə bədən tərbiyəsinin tədrisinə xüsusi diqqət yetirilməlidir. Çünki şagirdlər günün çox hissəsini məktəbdə keçirirlər. Təəssüflə qeyd etməliyəm ki, bəzi orta məktəblərdə idman dərsləri yüksək səviyyədə tədris olunmur.

***- Yəni demək istəyirsiniz ki, peşəkarlara hər yerdə ehtiyac vardır?***

- İdmanda uğur əldə etmək, onun kütləviliyini artırmaq üçün həm də savadlı, peşəkar kadrlara böyük ehtiyac vardır. Yəni orta məktəblərdə, idman məktəblərində öz işini bilən müəllimlər çalışmalıdır ki, nəticə əldə etmək mümkün olsun. Bu yerdə rayonumuzun ərazisində yerləşən 82 saylı orta məktəbin bədən tərbiyəsi və idman müəllimi Coşqun Əliyevin, 258 saylı tam orta məktəbin bədən tərbiyəsi və idman müəllimi Əli Kərimovun, “Ankara məktəbi” məktəb-liseyin bədən tərbiyəsi və idman müəllimi Şahin Abdullayevin adlarını çəkməyə bilmərəm. Bu insanlar həm öz işini, həm də idmanı sevirlər. Hər biri müxtəlif yaşlarında olmaqlarına baxmayaraq yorulmaq nə olduğunu bilmirlər. Mütəmadi olaraq yarışlar təşkil edirlər, şagirdləri idmana həvəsləndirirlər. Müəllim tədris etdiyini fənni sevdirmək üçün özü də nümunə olmalıdır.

## “Futbol əzələləri, şahmat isə zehni inkişaf etdirir”

***- Futbol və şahmatın inkişafı və təbliği ilə bağlı hansı tədbirlər həyata keçirilir?***

- Ölkə rəhbəri tərəfindən futbol və şahmat idman növlərinin inkişafı ilə bağlı qəbul edilən dövlət proqramları çərçivəsində mühüm tədbirlər həyata keçirilir. Burada məqsəd hər iki idman növünün ölkəmizdə daha da inkişaf etdirilməsidir. Futbolu uşaqlar və gənclər çox sevirlər. Həyətlərdə, küçələrdə top qovan uşaqları hər birimiz görürük. Futbol əzələləri, şahmat isə zehni inkişaf etdirir. Şahmat üzrə dövlət proqramının nəticəsi idi ki, Azərbaycan komandası dalbadal iki dəfə Avropa çempionu adını qazanıb. Düşünürəm ki, futbolda da uğurlarımız olacaq. Bunu Qurban Qurbanov “Qarabağ”ı klubunu UEFA Çempionlar Liqasına çıxartmaqla sübut etdi.

Nərimanov rayonunda mütəmadi futbol yarışları keçirilir. Bu il 10-a yaxın futbol yarışı keçirmişik. Futbol yarışlarında təqribən 15-20 komanda iştirak edir. Növbəti belə tədbirimiz iyunun 4-6-da 2006-2007-ci illər təvəllüdlü məktəblilər arasında keçirilən mini-futbol turniri oldu. Belə turnirlərin təşkili məktəbliləri futbol idman növünə cəlb etməklə, onların fiziki cəhətdən inkişafının və sağlamlıqlarının qorunmasına xidmət edir. Məktəb-Lisey Kompleksində keçirilən yarışda 16 komandanın iştirakı ilə 160 nəfər məktəbli iştirak etdi. Yarışda I yerə Məktəb-Lisey Kompleksin komandası layiq görüldü. II yeri 291 saylı Ekologiya liseyinin komandası, III yeri isə 57 saylı tam orta məktəbin komandası tutdu. Qalib komandaların üzvləri Nərimanov Rayon Gənclər və İdman İdarəsi tərəfindən müvafiq dərəcəli diplomlarla və medallarla təltif olundular. Biz həm də məhəllə futbolunun inkişafına da diqqət yetirir, müxtəlif yarışlar təşkil edirik.

***- Paşam Əlizadə haqqında nə deyə bilərsiniz?***

- Paşam Əlizadə Nərimanov rayonunda yerləşən “Ağ top” şahmat klubunun yetirməsidir. O ötən il keçirilən yarışda 9 oyunda 7 xal toplayaraq uğura imza atıb. Bu uşaq ilk dəfə 5 yaşında birinci dərəcəni toplayan ilk azərbaycanlıdır. Yeri gəlmişkən, bu il iyunun 7-də “Ağ Top” şahmat klubunun yeni tədris binasının açılışı oldu. Klub öz fəaliyyətinin daha da genişləndirərək, həm rayon ərazisində yerləşən orta məktəblərdə nümayəndiliklərini açdı, həm də şahmatla məşğul olanların sayını artırdı.

Valideynlər övladlarına düzgün istiqamət göstərməyi bacarmalıdırlar. Belə olan halda uğur da olacaq, nəticə də. Uşaqları kiçik yaşlarından rəsm və müsiqiyə cəlb etmək lazımdır. Əvvəllər keçirilən uşaq yaradıcılıq festivallarının çox böyük əhəmiyyəti var idi. Belə festivalların yenidən bərpa edilməsi yaxşı olardı.

***- Gənclər problemləri ilə bağlı sizə tez-tez müraciət edirlərmi?***

- Rayonda 26 orta məktəb, 9 ali təhsil ocağı, 6 kollec fəaliyyət göstərir. Tələbələrin əsas problemi yataqxana ilə bağlıdır. Biz çalışırıq ki, fəal, savadlı gəncləri işlə təmin edək ki, müəyyən problemlərini həll edə bilsinlər. Bizim təqdimatımızla onlarla gənc tələbə İcra Hakimiyyətində, Gənclər və İdman İdarəsində fəaliyyət göstərir. Belə gənclər çox savadlı, bilikli və çalışqandırlar. 650 bal toplayan tələbələrə İcra Hakimiyyəti tərəfindən təqaüd ayrılır. İl ərzində 30-35 nəfər bu təqaüdü alır. Ötən il 2 tələbəmiz, bu il isə 1 tələbəmiz 700 bal toplayıb. Tələbəmiz var ki, ona bu gün Avropa və Amerikanın məşhur universitetlərindən dəvətlər gəlir. Belə gənclərlə fəxr edir, qürur duyuruq.

Fəal gənclərin ad günlərini, mötəbər yarışlarda uğur qazanan idmançıların qələbələrini qeyd edirik. Fəal tələbələrin ailələrinə təşəkkür məktubu göndəririk. Təşəkkür məktubu alan tələbələrin valideynləri övladı ilə fəxr edir və onların cəmiyyətə gərəkli olduğuna sevinirlər. Tələbə də özünün cəmiyyətə gərəkli olduğunu anlayır. Cəmiyyətə gərəkli olmaq yaşamaq, var olmaq deməkdir.

***- Eşitdiyimizə görə, Bilik fondu ilə sıx əməkdaşlıq edirsiniz?***










- Biz Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondu ilə sıx əməkdaşlıq edirik. Fondun fəaliyyətindən, onun icraçı direktoru Oqtay Səmədovun işindən çox razıyıq. Ötən ay Fondun təşkilatçılığı ilə 2 tədbirimiz keçirilib. İyunun 12-də “Saf rənglər” beşinci beynəlxalq rəsm yaradıcılıq festivalının açılış mərasimi Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının (ADRA) Muzey-Sərgi Kompleksində təşkil edilib. Tədbir ənənəvi olaraq 2013-cü ildən keçirilir. Festivalda 2 yaşdan 16 yaşadək olan uşaq və yeniyetmə rəngkarlıq, qrafika, kiçik heykəltəraşlıq, dekorativ-tətbiqi sənət, həmçinin multimedia, installyasiya və animasiya kimi müasir incəsənət növlərində bacarıqlarını nümayiş etdirirlər.

Nərimanov Rayon Gənclər və İdman İdarəsinin və Bilik Fondunun birgə təşkilatçılığı ilə keçirilən ikinci tədbirimiz “Sağlam olmaq güclü olmaq deməkdir” mövzusunda oldu. İyunun 13-də təşkil edilən tədbir “Azərbaycan Xalq Cümhuriyyəti və Milli Ordumuzun 100-cü ildönümü ərəfəsində keçirilirdi. Burada gənclərin fiziki sağlamlığının və hazırlıq dərəcəsinin ordu quruculuğunda önəmi xüsusilə qeyd olundu.

***- Kikboksinq Federasiyası Nərimanov rayonu ərazisində yerləşir. Bu federasiya ilə əlaqələrinizi necə qurmusunuz?***

- Kikboksinq Federasiyası Nərimanov rayonunda yerləşir. Federasiyanın prezidenti Adil Əliyev həm də Nərimanov rayonundan millət vəkili seçilib. Federasiyanın fəaliyyətindən çox razıyıq. Rəhbərlik tərəfindən mütəmadi olaraq sağlam həyat tərzinin təbliği və narkomaniyaya qarşı tədbirlər çərçivəsində yarışlar həyata keçirilir. Kikboksinq Federasiyası “Hər ailədə bir idmançı yetişsin” şüarını əsas götürərək idmanın təbliğinə xidmət edir. Təbii ki, hər ailədə olmasa da, iki ailədən birində idmançının yetişməsi bu millətin sağlam gələcəyi, genofondun qorunması deməkdir.

***- Şans həyatda böyük rol oynayırmı?***

- Şansı yüksək qiymətləndirirəm. Amma şansı yetişdirən, doğuran zərurətlər də var. İnsan öz üzərində işləməsə, tənbəl olsa, şans ona heç vaxt yaxın gəlməyəcək. Düşünürəm ki, şansa yol açan zərurətləri özümüz yaratmalıyıq. Bəzən insanlar zəhmətkeş insanın irəli getdiyini görəndə, bunu şans kimi dəyərləndirirlər. Bu, belə deyildir. Axı həmin insan bu mükafatı almaq üçün əziyyət, zəhmət çəkib. Bax, bunu heç kəs demir.

***- Dostlarınız çoxdur?***

- Gənclər və idman sahəsində dostlarım çoxdur. Mənim üçün yaş fərqi yodur. Əsas odur ki, fikirlərimiz üst-üstə düşsün.

***- Yorulanda necə istirahət edirsiniz?***

- Gənclərlə işləməkdən yorulmuram, əksinə bu mənə güc, stimul verir. Rayon İcra Hakimiyyətində bir neçə şura və komissiyanın üzvüyəm. İşim çoxdur, amma yorulmuram.

***- Sonuncu oxuduğunuz kitab?***

- Bədii kitabları çox sevirəm. Vaxt tapan kimi mütaliə edirəm. Tarixi romanları daha çox xoşlayıram. Hazırda Ernest Hemunqeyin “Qoca və dəniz” əsərini oxuyuram. Sonra Qabriel Qarsiya Markesin “Gözlənilən bir qətlin tarixçəsi” əsərini oxumaq istəyirəm.

***- Gənclərimizə nə tövsiyə edərdiniz?***

- Gənclərimiz öz üzərində çox işləməlidirlər. Özlərinə, öz güclərinə inanmalı, güvənməlidirlər. Onlar tariximizi yaxşı bilməli, bir neçə xarici dil öyrənməlidirlər. Tərbiyə mühüm şərtdir və gəlin etiraf edək ki, hər birimiz cəmiyyətdə, ictimaiyyət arasında tərbiyəli, mərifətli gəncləri görəndə necə sevinirik. Uşaq və gənclərin əsil bir insan kimi yetişməsində ona verilən təlim-tərbiyədən əlavə onun düşdüyü mühit və şəraitin də çox böyük rolu vardır. Valideynlər övladlarının kiminlə oturub-durduqlarına nəzarət etməlidirlər ki, sonra peşmançılıq çəkməsinlər. Gənclər bizim ümidimiz, gələcəyimizdir.

***Səadət Hakıyeva***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*

# DÜNYA İDMANI



# Luis Hamilton izahat verdi

"Mersedes" komandasının pilotu Luis Hamilton Formula-1 azarkeşlərinə izahat verməli olub. Belə ki, tanınmış idmançı İngiltərə Qran-pri yarışlarından sonra jurnalistlərə müsahibə vermək istəməyib.

"Mən həmişə sizlərə və komandama görə lider olmağa çalışıram. 3 kq arıqlamışam. Yarışdan sonra gücüm yox idi, ayaqüstə güclə dayanırdım və danışa bilmirdim. Əgər siz mənim vəziyyətimdən anlamırsınızsa, daha nə deyim. Əzizlərim, mən həm fiziki, həm də mənəvi cəhətdən çox yorğun idim.

Hər birinizə təşəkkür edirəm və yeni zirvələr fəth etmək arzusu ilə sizinlə sağollaşıram", - deyə Luis Hamilton instaqram səhifəsindən azarkeşlərinə səslənib.



# Üslubu döyüş müəyyən edir



Tanınmış boksçu Əmir Xanın promouteri Eddi Hirn yetirməsinin gələcək planları haqqında danışıb.

"Əmir Xan Krouford üçün ciddi rəqibdir. Boksçunun üslubunu onun döyüşləri müəyyən edir. Bəzi üslub nümunələri Krouford üçün əlverişlidir. Düşünürəm ki, Xanın üslubu ona bu döyüşdə qalib gəlmək imkanı verəcək. Əmir Xanın gözləri qələbə qığılcımı səpir və o, ən yaxşılara qalib gələ bilər", - deyə boksçunun promouteri bildirib.

Qeyd edək ki, Əmir Xan bundan əvvəl Kell Bruka qalib gəlib. O rinqdə növbəti döyüşünü kolumbiyalı idmançı Camuelya Varqasa qarşı bu ilin sentyabrında keçirəcək.

# Klub rəhbəri Lebron Ceymsi gözləməli oldu

"Leykers" klubunun prezidenti, tanınmış basketbolçu Mecik Conson klubuna keçid alan Lebron Ceymslə görüşmək üçün onu avtomobilində 1 saat gözləməli olub.

Görüşdən razı qaldığını bildirən klub prezidenti deyib: "Bizim yaxşı söhbətimiz oldu. Biz biri-birimizə çox oxşayırıq. İkimiz də Orta Qərbdə doğulmuşuq, ikimiz də kasıb ailədə böyümüşük, hər ikimiz döyüşməyi və qalib gəlməyi sevirik.



Biz tez dil tapdıq. Çünki Lebron Ceyms çox sadə və səmimi insandır. O, komandanı bizdən yaxşı tanıyır, güclü və zəif cəhətlərimizi bilir".

Qeyd edək ki, Lebron Ceyms azad agent statusu almamışdan əvvəl "Klivlend" klubunda oynayıb.

# Mixael Şumaxerin rekordu təzələndi



Fernando Alonso Avstriya Qran-Prisində əvvəllər Mixael Şumaxerə məxsus olan iki mütləq rekordu yeniləyib. Doğrudur, hər iki rekord yürüşün nəticələrindən çox Formula-1 yarışlarında çıxışların davamlılığı ilə bağlıdır.

Avstriya Qran-Prisində bütün məsafəni qət edən Fernando Alonso karyerası ərzində keçdiyi məsafəyə görə birinci yerə çıxıb. Mixael Şumaxer çıxış etdiyi illər ərzində 81.208 kilometr məsafə qət etdiyi halda, Alonso 81.394 kilometrə imza atıb. Bununla belə, ispan pilotu Qran-Pri yarışlarının sayına görə alman həmkarından geri qalır: o, Formula 1 yarışlarında 300 dəfə, Mixael Şumaxer isə 306 dəfə start götürüb.

İkinci rekord pilotun karyerasındakı finişlərin sayı ilə bağlıdır. Mixael Şumaxer Qran-Pri yarışlarında 237 dəfə finişə çatıb. Avstriya finişi isə Alonso üçün 238-ci olub.

# Transfer xəbərləri

Futbol üzrə Portuqaliya millisinin və Madrid "Real"ının hücumçusu Kriştianu Ronaldonun İtaliyanın "Yuventus" klubuna transferi rəsmən təsdiqlənib. İspaniyanın və İtaliyanın idman mətbuatı Ronaldonun transferinin 105 milyon avro müqabilində reallaşdığını yazıb.

Xatırladaq ki, 2009-cu ildən "Real"ın formasını geyinən Kriştianu Ronaldo bu klubun heyətində ən çox qol vuran futbolçudur. Portuqaliyalı hücumçu əvvəlki rekordun sahibi olan Raul Qonsalesdən 303 oyun az keçirməsinə baxmayaraq, 438 qolla "Real"ın tarixinə ən məhsuldar futbolçu kimi düşüb. O, bu qolları 450 matçda vurub.

* * *

PSJ klubu "Barselona"nın futbolçusu Filip Koutinyonu transfer etmək niyyətindədir. Braziliya millisinin də formasını geyinən Koutinyo üçün PSJ klubu rekord məbləğ - 270 milyon avro təklif edib. Lakin həmin məbləğ birbaşa "Barselona"ya deyil, futbolçunun agentinə ödəniləcək.

Müqavilə 2023-cü ilə qədər nəzərdə tutulub. Məlumata görə, Koutinyonun PSJ klubuna gətirilməsi ideyası Neymara məxsusdur.

Xatırladaq ki, Neymar özü "Barselona"dan PSJ klubuna 222 milyon avro müqabilində keçib. Koutinyo isə bu ilin yanvarında "Liverpul"dan ayrılaraq Katalonya komandasının formasını geyinib. Bu transfer katalonlara 125 milyon avroya başa gəlib.

* * *

Almaniyanın "Borussiya" (Dortmund) futbol klubu yeni baş məşqçisini rəsmən təqdim edib. Bundesliqa təmsilçisi bu ilin mayında razılaşdığı Lüsyen Favr üçün təqdimat mərasimi təşkil edib.

Altmış yaşlı isveçrəli mütəxəssislə ikiillik müqavilə imzalandığı bildirilib.

Qeyd edək ki, Favr ötən mövsüm "Nitsa"nın baş məşqçisi olub.

* * *

İtaliyanın "İnter" futbol klubu növbəti transferini reallaşdırmağa yaxındır. "Atletiko"nun müdafiəçisi Şime Vrsalko İtaliya A Seriyasına gəlməyə hazırlaşır. Klublar arasında danışıqlar artıq yekunlaşmaq üzrədir. "İnter" Xorvatiya millisinin üzvünü transfer etmək şərti ilə birillik icarəyə götürmək niyyətindərir. Qarşı tərəf bu keçidə ilkin razılıq verib.

İyirmi altı yaşlı sağ cinah oyunçusunun "Napoli" və "Roma"nın da maraq dairəsində olmasına baxmayaraq, "İnter"ə keçidi daha real görünür.

* * *

"Barselona" klubunun kolumbiyalı müdafiəçisi Yerri Mina İngiltərənin "Everton" komandasına keçə bilər. İngilislər Yerri Minanın keçidini yaxın günlərdə tamamlaya bilərlər. "Liverpul klubu futbolçunu icarə əsasında heyətinə qatmağa yaxındır. Onlar "Barselona" ilə razılaşıblar. Bağlanacaq müqavilədə birdəfəlik satın alma bəndi də olacaq ki, əgər "Everton" bu bənddən istifadə etmək istəsə, 24 milyon avro ödəməli olacaq.

* * *

İngiltərənin "Liverpul" klubu "Stok Siti" komandasının futbolçusu Herdan Şakirini transfer etməyə hazırlaşır.

"Mersesaydlılar" İsveçrə millisinin 26 yaşlı oyunçusunun transferinə 13 milyon funt ödəməyə hazır olduqlarını bəyan ediblər. Şakirinin çıxış etdiyi "Stok Siti" İngiltərə çempionatının birinci dəstəsindən uzaqlaşdığı üçün, o, yeni klub axtarışında idi. Əvvəllər bu futbolçu ilə "Everton" və "Sauthempton" komandalarının maraqlandığı deyilirdi.

* * *

"Barselona" futbol klubunun yarımmüdafiəçisi Paulinyo karyerasını yenidən "Quançjou Everqrand" komandasında davam etdirəcək.

"Sambaçı" ilə rəsmi müqavilə imzalansa da, detalları açıqlanmayıb. 29 yaşlı oyunçunun 4 illik müqaviləyə imza atdığı və Çin klubunun bu transfer üçün kataloniyalılara 50 milyon avro verdiyi deyilir. Xatırladaq ki, bir il əvvəl "Barselona" Paulinyonu məhz "Quançjou Everqrand"dan 40 milyon avroya almışdı.

* * *

İspaniya yığmasının baş məşqçisi vəzifəsinə "Barselona" klubunun sabiq məşqçisi Luis Enrike təyin olunacaq.

İspaniya Kral Futbol Federasiyası 48 yaşlı mütəxəssislə razılıq əldə edib. Enrikeyə ikiillik müqavilə təklif olunub.

Federasiya "Espanyol"un baş məşqçisi Kike Sançes Flores və hazırda Belçika millisinə rəhbərlik edən Roberto Martineslə də danışıqlar aparıb.

Qeyd edək ki, Rusiyadakı dünya çempionatının startına bir gün qalmış İspaniya millisinin baş məşqçisi postunda dəyişiklik olub. Fernando Yerro "Real"a baş məşqçi təyin olunan Xulen Lopetegini əvəzləyib. Yerronun rəhbərliyi altında yığma səkkizdəbir finaladək irəliləyib. Bu komandanın qarşısını Rusiya (1:1, penaltilərlə 4:3) kəsib.

Qənbər Ağayev, Ələmdar Məmmədov, Mobil İsmayılov, Fazil Hadıbəyov, Zabit İbayev, Əli Əlifov, Əlikram Əliyev, Ağalar Cavadov və Yavər Həşimov Azərbaycan Tibb Universitetinin kafedra müdiri

**Akif Fərman oğlu Miriyevin**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər. Allah rəhmət eləsin!

"Olimpiya dünyası" qəzetinin kollektivi Azərbaycan Tibb Universitetinin kafedra müdiri

**Akif Fərman oğlu Miriyevin**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

"Olimpiya dünyası" qəzetinin kollektivi ağırlıqqaldırma üzrə məşqçi Üzeyir Hacıyevə, bacısı

**Lətifəxanım Qaraş qızı Cəbrayılovanın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

Nadir Əliyev, Fazil Hadıbəyov, Rasim Əliyev, İsmayıl Əliyev, Nazim Nurullayev, Ceyhun İbrahimov, Fərhad Məmmədov, Saridan Mursaqulov, Yavər Hacıyev, Tahir Ələkbərov və Binyamin Mənsimzadə "Gənclik" Tələbə İdman Cəmiyyəti Respublika Şurasının sədri Tofiq Xanəliyevə, anası

**Aliyə Ağahüseyn qızı Quliyevanın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər. Allah rəhmət eləsin!

Respublika Yüksək İdman Ustalığı Məktəbinin kollektivi "Gənclik" Tələbə İdman Cəmiyyəti Respublika Şurasının sədri Tofiq Xanəliyevə, anası

**Aliyə Ağahüseyn qızı Quliyevanın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

"Olimpiya dünyası" qəzetinin kollektivi "Gənclik" Tələbə İdman Cəmiyyəti Respublika Şurasının sədri Tofiq Xanəliyevə, anası

**Aliyə Ağahüseyn qızı Quliyevanın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

Olimpiya dünyası

**Baş redaktor:**
**M.Q.Fərzəliyev**

**Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168**

**AZƏRBAYCAN BEYNƏLXALQ BANKI**
**H/H AZ79IBAZ38090019449333849204**
**M/H 0137010002944**
**KOD 805250**
**VÖEN 1500306421**

**Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.**
**Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.**

**Qiyməti 20 qəpikdir.**
**Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı çap edilir.**

**DİQQƏT!**
**Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.**

***E-mail:***
**olimpiya_dunyasi@mail.ru**
***Ünvan:***
**Bakı şəhəri,**
**2-ci sülh döngəsi, 2a.**
***Tel.:*** **564-90-49; 564-90-54; 564-74-19**